DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 03 (389) / MART 2024-CÜ İL

## PREZİDENT İLHAM ƏLİYEV VƏ QAZAXISTAN PREZİDENTİ KASIM-JOMART TOKAYEV ŞUŞADAKI SAATLI MƏSCİDİNDƏ OLUBLAR



Martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Şuşa şəhərinə səfər ediblər.

Prezidentlər Saatlı məscidində olublar. Məlumat verilib ki, məscid 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabağinin layihəsi əsasında inşa olunub. XIX əsrin memarlıq abidəsi olan Saatlı məscidinin inşa edildiyi yerdə əvvəllər Molla Pənah Vaqifin dərs dediyi bir-birinə bitişik mədrəsə və məscid binaları olub. Şuşa şəhəri işğal altında olduğu müddətdə digər məscidlər kimi, Saatlı məscidi də ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci ilin dekabrından məsciddə Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılıb və ötən ilin may ayında məscidin açılışı olub.

## DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ YAZI MÜSABİQƏSİ ELAN EDİR

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101 illiyi münasibətilə "Qüdrətli Azərbaycan Heydər Əliyevin şah əsəridir" mövzusunda din xadimləri və dini icmaların üzvləri arasında yazı müsabiqəsi elan edir.

Müsabiqəyə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasında, hərtərəfli tərəqqinin əldə olunmasında, dövlət-din münasibətlərinin qurulması və bu istiqamətdə hüquqi bazanın yaradılmasında Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətlərindən bəhs edən məqalələr göndərilə bilər. Həmçinin əsası Ulu Öndər tərəfindən qoyulan strategiyanın Prezident İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun olaraq daha da inkişaf etdirilməsi nəticəsində qazanılmış çoxşaxəli uğurlara, 44 günlük Vətən müharibəsində əldə olunmuş tarixi qələbənin əsasında duran azərbaycançılıq ideologiyasına, milli-dini həmrəyliyə həsr edilmiş məqalələr qəbul olunur.

**Müsabiqənin şərtləri**

- müsabiqəyə hər müəllif yalnız bir yazı təqdim edə bilər;
- yazı mövzuya uyğun olmalıdır;
- yazıya uyğun olaraq yaradıcı başlıq müəyyənləşdirilməlidir;
- yazı dolğun, əhatəli olmalı və faktlara əsaslanmalıdır;
- yazının həcmi 8 000 (səkkiz min) işarədən artıq olmamalıdır (1,5 aralıq məsafə ilə təxminən 3-4 A4 formatlı vərəq həcmində);
- müsabiqə üçün verilmiş yazı qəzetdə çap edilərsə, qəzetin həmin sayının 1 nüsxəsi Dövlət Komitəsinə təqdim olunmalıdır;
- yazı elektron media resursunda yayımlanarsa, link yazıya əlavə edilərək, redaksiya@scwra.gov.az e-mail ünvanına göndərilməlidir;
- yazı təqdim edən şəxsin əlaqə vasitələri - ev və ya iş telefonu, mobil telefonu, e-mail ünvanı yazıya əlavə edilməlidir.

**Mükafat**

I (1 nəfər) yer – 500 AZN
II (1 nəfər) yer – 400 AZN
III yer (1 nəfər) – 300 AZN
Hər biri 100 manat olmaqla üç həvəsləndirici mükafat.

**Müsabiqənin müddəti:**

Məqalələr 2024-cü il 15 aprelədək təqdim edilməlidir.

**Ünvan:** Bakı şəhəri, Əhməd Cavad küç., 16
**Əlaqə telefonları:** (012) 505 78 16 / (012) 505 78 19
**E-mail:** redaksiya@scwra.gov.az

# "MÜXTƏLİFLİYİN QORUNMASI: 2024-CÜ İLDƏ İSLAMOFOBİYA İLƏ MÜBARİZƏ" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA



Hörmətli konfrans iştirakçıları.

Sizi "Müxtəlifliyin qorunması: 2024-cü ildə İslamofobiya ilə mübarizə" mövzusunda Bakıda keçirilən beynəlxalq konfransda salamlayıram. Bugünkü tədbirin İslam aləmi üçün mübarək Ramazan ayının başlaması və "İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü" ərəfəsində keçirilməsi rəmzi məna kəsb edir.

Təəssüflər olsun ki, dünyada islamofobiya meyilləri sürətlə artmaqdadır. İslamın potensial təhlükə mənbəyi kimi aşılandığının, müsəlmanlara qarşı şübhə, ayrı-seçkilik və açıq nifrətin gündən-günə daha geniş yayıldığının şahidi oluruq. İslamofobiya ilə Mübarizə Gününə dair BMT-nin Qətnaməsində də qeyd edildiyi kimi dini inanclarla bağlı ayrı-seçkilik, dözümsüzlük və şiddət hallarının çoxalması dərin narahatlıq doğurur.

Acınacaqlı haldır ki, hazırda islamofobiya özünü demokratik hesab edən bir sıra Qərb ölkələrinin dövlət siyasətinin tərkib hissəsini təşkil edir. Son bir ildə dünyada baş vermiş bütün anti-İslam təzahürlərinin 80 faizi bu ölkələrin payına düşür. İslamofobiyanın ən yüksək səviyyəyə çatdığı və rəsmi ideologiya kimi tətbiq olunduğu bəzi Avropa ölkələrində müqəddəs kitabımız "Qurani-Kərim"in yandırılması, Məhəmməd Peyğəmbərin (s.ə.s) karikaturalarının nəşr edilməsi və sair təhqiramiz hərəkətlər söz azadlığı kimi qələmə verilir. Fransa özünün ənənəvi neokolonializm siyasəti ilə bərabər müsəlmanlara qarşı açıq-aşkar təzyiq və diskriminasiya siyasəti yürüdür, müxtəlif islamofob kampaniyalar təşkil edir. "Dünyəvilik" adı altında sırf müsəlmanların hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yönəlmiş qanunvericilik aktları və siyasi qərarlar qəbul edir. Bu ölkədə məscidlər, müsəlman mədəniyyət mərkəzləri və qəbiristanlıqlar müxtəlif formalarda təhqirlərə məruz qalır, müsəlman vətəndaşlar sıxışdırılır.

Müsəlmanların hisslərini təhqir edən bu cür təzahürlərlə mübarizə aparmaq, cinayətkarları məsuliyyətə cəlb etmək əvəzinə, həmin ölkələrin hökumətləri islamofob əhvali-ruhiyyəni daha da qızışdırır, müsəlmanlara qarşı təqibləri təlqin edir və bu kimi mövzuları davamlı olaraq gündəlikdə saxlamağa çalışırlar. Təəssüflər olsun ki, özlərini demokratik adlandıran bəzi Qərb təsisatları da anti-İslam fəaliyyətini həyata keçirirlər. Bu gün Avropa Parlamenti və Avropa Şurasının Parlament Assambleyası islamofobiyanı təşviq edən və bu ideologiya əsasında siyasət yürüdən platformalara çevrilmişdir.

Hazırkı mənfi tendensiya bəzi qlobal media qurumlarının fəaliyyətində də özünü büruzə verir. Bu qurumlar tərəfindən İslam dininə, İslam mədəniyyətinə qarşı məqsədyönlü şəkildə fəaliyyət aparılır, İslamın gerçək mahiyyətini təhrif etməklə onu terrorla eyniləşdirmək, ləkələmək və qaralamaq cəhdləri həyata keçirilir.

Biz vüsət almaqda olan və dinimizi gözdən salmağa yönəlmiş bu meyilləri qəti şəkildə pisləyirik. İslam sülh, mərhəmət, dözümlülük və ədalət dinidir. Dünya xəritəsinə baxdıqda, terrordan ən çox əziyyət çəkənlərin məhz müsəlmanlar olduğunu görə bilərik.

Azərbaycan da islamofobiyadan əziyyət çəkən ölkədir. Ermənistan tərəfindən torpaqlarımızın 30 illik işğalının ən ağır fəsadlarından biri də bəşəri əhəmiyyətə malik mədəni irsimizin, o cümlədən İslam dininə aid abidələrin qəsdən dağıdılması və məhv olunmasıdır. İlkin araşdırmalara görə işğal dövründə 65 məscidin yerlə-yeksan edildiyinə dair məlumatlar olsa da, təəssüf ki, bu rəqəmlər getdikcə daha da artır və İslam irsinə qarşı erməni vandalizminin çoxsaylı yeni nümunələri ortaya çıxır. Bundan əlavə, bu ərazilərdə yüzlərlə müsəlman qəbiristanlığının məhv edildiyi, müsəlman dini ibadət yerlərinin, məscid və türbələrimizin təyinatının dəyişdirilərək saxtalaşdırıldığı, bir çox hallarda isə tövlə kimi istifadə olunaraq orada dinimizdə haram sayılan heyvanların saxlanıldığı faktları aşkar edilir. Bu cür həqarət aktları yalnız bizim deyil, bütün dünya müsəlmanlarının hisslərini təhqir edir.

Eyni zamanda, Ermənistan ərazisində yerləşən Azərbaycanın İslam tarixi-mədəni irsinin məhv edilməsi böyük məyusluq doğurur. Azərbaycan UNESCO-ya müraciət edərək Ermənistanda illər ərzində dağıdılmış mədəni və dini abidələrimizin vəziyyətinin qiymətləndirilməsinin aparılması məqsədilə bu ölkəyə texniki missiyanın göndərilməsinə çağırış etmişdir. Əfsuslar olsun ki, UNESCO indiyə kimi bu çağırışa cavab verməmişdir.

Biz Azərbaycanın çoxmillətli və çoxkonfessiyalı ölkə olması ilə fəxr edirik. Burada bütün dinlərin və etnik qrupların nümayəndələri əmin-amanlıq şəraitində bir ailə kimi yaşayırlar. Ölkəmizdə milli sərvət kimi qorunan dini bərabərlik və inklüzivlik Azərbaycan xalqının həyat tərzidir, onun güc mənbəyidir. Bundan irəli gələrək, təbiidir ki, multikultural dəyərlərə hörmət bizim dövlət siyasətimizin prioritet istiqamətlərindən birini təşkil edir.

Ölkəmiz dünya miqyasında da sülh, dinc birgəyaşayış, humanizm dəyərlərinin təbliği və təşviqi üçün əlindən gələni əsirgəmir. Azərbaycan müxtəlif mədəniyyətlər arasında ahəngdar münasibətləri dəstəkləyir, qarşılıqlı anlaşmaya nail olunması naminə sivilizasiyalar və mədəniyyətlərarası dialoq zəminində davamlı olaraq bir çox qlobal təşəbbüslər irəli sürür. May ayında Bakıda keçiriləcək və artıq yaxşı ənənəyə çevrilmiş Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu bunun bariz nümunələrindəndir.

XXI əsrdə islamofobiya, ksenofobiya və irqçiliyə yer olmamalıdır. Terrorizm və ekstremizmi hər hansı bir din, millət, sivilizasiya və ya etnik qrupla əlaqələndirmək yanlış yanaşmadır. Dindən siyasi məqsədlər üçün istifadə yalnız cəmiyyətlər daxilində nifaq və qarşıdurma yaratmağa xidmət edir. Bu təzahürlər, eyni zamanda, insanlığı humanizm ideallarından və ümumbəşəri dəyərlərdən məhrum edir, nəticədə sivilizasiyalararası münaqişələrə gətirib çıxarır.

Bugünkü tədbir Azərbaycanın müasir dövrün çağırışlarından olan islamofobiya ilə mübarizə əzmini nümayiş etdirir. Əminəm ki, konfrans islamofobiyaya qarşı birgə səylərlə mübarizəyə, dinlərin və inancların müxtəlifliyinə hörmətə əsaslanan tolerantlıq və sülh mədəniyyətinin təşviqi ilə bağlı yeni təşəbbüslərin irəli sürülməsinə töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, konfransın işinə uğurlar diləyirəm.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 7 mart 2024-cü il

# ROMA PAPASI FRANSİSK HƏZRƏTLƏRİNƏ

Zati-müqəddəsləri,

Tacqoyma Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün həmməzhəbləriniz şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı əlaqələrin inkişafına xüsusi əhəmiyyət veririk. Aramızda uzun illərdən bəri təşəkkül tapmış səmimi dialoq və qarşılıqlı anlaşma ümumbəşəri dəyərlərin qorunub saxlanmasına, müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri arasında həmrəyliyin bərqərar olmasına xidmət edir.

Azərbaycanın multikulturalizm və inklüzivlik ənənələrinə, dünyada dinlərarası və mədəniyyətlərarası qarşılıqlı anlaşmanın təşviqində roluna verdiyiniz yüksək qiymətə görə Sizə təşəkkürümü ifadə edirəm.

Əminəm ki, Azərbaycan-Müqəddəs Taxt-Tac nümunəvi əməkdaşlığı bundan sonra da sivilizasiyalar arasında qarşılıqlı etimad mühitinin bərqərar edilməsinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, uzun ömür, müqəddəs amallar naminə ali missiyanızda uğurlar diləyirəm.

Hörmətlə,
**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 11 mart 2024-cü il

# AVROPA ŞURASI Aİ ÖLKƏLƏRİNDƏ İSLAMOFOBİYANIN GÜCLƏNDİYİNİ ETİRAF EDİB




Avropa Şurası Aİ ölkələrində islamofobiya meyillərinin artdığını etiraf edib. Şuranın bu mövzuda ilk koordinasiya iclasında müsəlmanlara qarşı nifrət və ayrı-seçkilik məsələləri müzakirə olunub.

İclasda çıxış edən Avropa Şurasının Baş katibi Mariya Buriç müsəlman icmalarının Avropada cəmiyyət həyatına verdiyi töhfələrin tanınmasının vacibliyini vurğulayıb. Bununla belə, o, müsəlman icmalarının üzləşdiyi davamlı çətinlikləri, o cümlədən dini dözümsüzlükdən qaynaqlanan qərəz, ayrı-seçkilik və hətta zorakılıqları vurğulayıb.

Buriç Yaxın Şərqdəki son münaqişələrdən sonra anti-İslam əhvali-ruhiyyəsinin həyəcanverici səviyyədə artmasına diqqət çəkərək, bir sıra Avropa ölkələrində irqçilik zəminində hadisələrin daha tez-tez baş verdiyini qeyd edib. Onun sözlərinə görə, bu cür hərəkətlər çox yanlışdır və təcili tədbirlər görülməsini tələb edir.

Mariya Buriç deyib: "Biz bu mənfi tendensiyanı dayandırmaq üçün mümkün olan hər şeyi etməliyik, bütün imkanlardan istifadə edərək və avropalı sakinlər kimi, həm də hər bir müsəlmanın təhlükəsizliyini, ləyaqətini təmin etmək üçün birlikdə çalışmalıyıq". O əlavə edib ki, birgə səylərlə müsəlmanlara qarşı nifrət ritorikasına da son qoyulmalıdır.

# GƏNCƏDƏ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ DİNLƏNİLİB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsini müvəqqəti icra edən Səyyad Salahlı martın 14-də Gəncə şəhər Heydər Əliyev Mərkəzində vətəndaşların müraciətlərini dinləyib.

Qəbuldan öncə Səyyad Salahlı və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Ümummilli Lider Heydər Əliyevin şəhərdə ucaldılan abidəsini ziyarət edib, önünə çiçəklər qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Qəbulda vətəndaşların İslam dininə aid ibadət yerlərinə din xadiminin təyinatı, dini maarifləndirmə işinin genişləndirilməsi, dini icmaların fəaliyyəti və digər məzmunlu müraciətləri dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbəri Həsən Məmmədovun iştirakı ilə keçirilmiş qəbulda Gəncə şəhərindən, Daşkəsən, Göygöl, Samux və Goranboy rayonlarından olan vətəndaşlar iştirak ediblər.

# DİN XADİMLƏRİNİN ATTESTASİYASI TƏŞKİL EDİLİB

Mart ayının 4-6-da İslam dininə aid ibadət yerlərində və ziyarətgahlarda çalışan din xadimlərinin attestasiyası keçirilib. Bu məqsədlə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən Attestasiya Komissiyası yaradılıb. Komissiyada DQİDK və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nümayəndələri ilə yanaşı, ilahiyyatçı alimlər təmsil olunurlar.

İlk dəfə təşkil edilən attestasiya QMİ-nin inzibati binasında keçirilib. Prosesdə fəaliyyət dövrünün 5 ilini tamamlamış 64 din xadimi iştirak edib.

Qeyd edək ki, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin 3-cü hissəsinə, eləcə də "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası"na əsasən, İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara təyin olunmuş din xadimlərinin hər beş ildən bir attestasiya edilməsi nəzərdə tutulub.



# AZƏRBAYCANDA İLK DƏFƏ "DİNLƏRARASI HARMONİYA" FESTİVALI KEÇİRİLİB








Ölkəmizdə fəaliyyət göstərən dini qurumların birgə təşkilatçılığı ilə mart ayının 8-də Bakıda "Dinlərarası harmoniya" festivalı keçirilib.

Ölkəmizdə mənəvi dəyərlərin, tolerant və multikultural ənənələrin inkişafı və təbliği məqsədilə təşkil olunan festivalda Qafqaz Müsəlmanları İdarəsi, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Dağ, Avropa, Gürcü yəhudiləri, Roma Katolik Kilsəsinin Apostol Prefekturası, Azərbaycan Bibliya Cəmiyyəti (protestant yönümlü icmalar), Azərbaycan Bəhailəri Dini Mərkəzi, Alban-Udi Xristian dini icması, Krişna Şüuru, gürcü pravoslav, Molokan ruhani xristian və digər dini qurumların fəaliyyətini əks etdirən stendlər, sənədli film və videoçarxlar nümayiş etdirilib. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərimizdə yerləşən tarixi-dini abidələr və ziyarətgahların işğal dönəmindəki və hazırki vəziyyətindən bəhs edən "Qarabağ" stendi təqdim edilib.





Festivalda açılış nitqi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin vəzifələrini müvəqqəti icra edən Səyyad Salahlı çıxış edərək diqqətə çatdırıb ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş din siyasətinin uğurlu icrası nəticəsində Azərbaycanda nümunəvi dövlət-din münasibətləri formalaşıb, dini etiqad azadlığı tam təmin edilib, eyni zamanda dini dəyərlərə, ibadət yerlərinə xüsusi qayğı göstərilir. Məhz görülmüş bu işlər və atılmış addımlar sayəsində Azərbaycanda dövlətlə dini qurumlar arasında münasibətlərin özünəməxsus modeli dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Ümummilli Liderin əsasını qoyduğu bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycanda bütün xalqların və dinlərin nümayəndələrinin hüquqları, dini etiqad azadlığı təmin edilir, dini əqidəsindən asılı olmayaraq, dövlət hər bir vətəndaşına eyni dərəcədə diqqət və qayğı göstərir, insanlarımız bir-birinə tolerant yanaşırlar.

DQİDK sədrinin müavini Səyavuş Heydərov isə öz çıxışında bildirib ki, nümunəvi tolerantlıq və multikulturalizmin hökm sürdüyü, dinc birgəyaşayış və dialoq mədəniyyətinin, mənəvi harmoniyanın mövcud olduğu Azərbaycan müxtəlif sivilizasiyalar arasında tarixən oynadığı mənəvi körpü rolunu dövlət başçımızın qlobal təşəbbüs və səyləri, siyasi iradəsi sayəsində layiqli şəkildə həyata keçirir. Bu gün Azərbaycanda digər xalqların mədəniyyətləri ilə zənginləşmiş yeni tipli bir mədəniyyət formalaşıb. Bu mədəniyyət Azərbaycanda birgəyaşayışa, çoxmillətli cəmiyyətin harmoniyasına, multikultural dəyərlərin ön mövqeyə çəkilməsinə, dinlərarası harmoniyanın möhkəm üzvi sintezinin yaranmasına gətirib çıxarıb. Bu da həmrəylik, ictimai-siyasi cəhətdən möhkəm Azərbaycan modelini ortaya qoyub. Dünyada baş verən hadisələrə, problemlərə nəzər salanda görürük ki, bu problemlərin həll edilməsi üçün sivilizasiyalararası, dinlərarası, mədəniyyətlərarası dialoq olduqca mühümdür.

"Müxtəlifliyin qorunması: 2024-cü ildə İslamofobiya ilə mübarizə" konfransında iştirak etmək məqsədilə ölkəmizə səfər edən ABŞ Müsəlman Təşkilatları Şurasının Baş katibi Ussama Əli Cammal, Pakistan Müsəlman İnstitutunun direktoru Sahibzadə Sultan Əhməd Əli, "Haider Global BVBA Brüssel" şirkətinin baş direktoru Səccad Kərim, İslam Əməkdaşlıq Təşkilatının İslam tarixi, incəsənəti və mədəniyyəti üzrə araşdırma mərkəzinin Baş direktoru Mahmud Erol Kılıç, Din Azadlığı üzrə Amerika Mərkəzinin baş direktoru Cannah Skott da çıxış edərək, ölkəmizin tolerantlıq məsələləri üzrə ardıcıl dialoqu təmin edən mədəniyyətlərarası platforma, dinlərarası etimad, harmoniya və missionerlik daşıyıcısı olduğunu diqqətə çatdırıblar. Qonaqlar festival çərçivəsində Azərbaycandakı dünyaya örnək tolerantlıq mühiti və dünyəvilik modelinə əyani şahidlik imkanı əldə etdiklərini, Prezident İlham Əliyevin multikultural siyasəti və görüşünü təqdir etdiklərini dilə gətiriblər.

Qeyd edək ki, festival zamanı dini qurumların nümayəndələrinin ədəbiyyat nümunələri və üzvlərinin əl işləri sərgilənib, tədbir dini icmaların musiqi qrupları və xorlarının ifaları ilə davam edib.

# MİLLİ ONKOLOGİYA MƏRKƏZİNDƏ “KİM ÜZR İSTƏMƏLİDİR?” ADLI KİTABIN TƏQDİMAT MƏRASİMİ OLUB



Martın 4-də Milli Onkologiya Mərkəzinin həkimi, tibb üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikasının Əməkdar həkimi Elçin Mansurovun bu yaxınlarda işıq üzü görən “Kim üzr istəməlidir?” adlı kitabının təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Onkologiya Mərkəzində keçirilən tədbirdə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş qəhrəmanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra tədbirdə çıxış edən Səhiyyə Nazirliyinin baş onkoloqu, tibb üzrə fəlsəfə doktoru Azad Kərimli, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsini müvəqqəti icra edən, filologiya elmləri namizədi, yazıçı-publisist Səyyad Salahlı, Azərbaycan Milli Konservatoriyasının kafedra müdiri, professor, Xalq artisti Xuraman Qasımova, Milli Məclisin deputatı Aqil Abbas və digərləri kitabın müəllifi Elçin Mansurovun yaradıcılıq fəaliyyətindən danışıblar. Kitab haqqında da fikirlərini bölüşən çıxışçılar nəşrdə mənbələrə əsaslanan 1000-ə yaxın fakt olduğunu vurğulayıblar.

Qeyd edək ki, kitabda tarixi faktlar əsasında Çar Rusiyasının ermənipərəst siyasəti və bilavasitə köməyi ilə ermənilərin əzəli Azərbaycan torpaqlarına köçürülməsi, erməni-bolşevik tandeminin tarixi ərazilərimizdə Ermənistan dövlətini necə yaratmaları və erməni şovinistlərinin “böyük Ermənistan” xülyasını reallaşdırmaq üçün azərbaycanlılara qarşı həyata keçirdikləri amansız qətliamlar, soyqırımları haqqında məlumat verilib. Kitabda haqqında bəhs olunan hadisələr Kürəkçay, Gülüstan, Türkmənçay müqavilələri, dövrləri də daxil olmaqla son 200 ili əhatə edir. Məlumatın əksər hissəsini azərbaycanlılara qarşı 1988-ci il fevralın 13-də “Miatsum” mitinqi ilə başlayan və 2023-cü il






sentyabrın 19-dan 20-dək antiterror əməliyyatına qədər davam edən erməni vəhşilikləri və təxribatları təşkil edir. Həmçinin kitabda 30 illik erməni işğalına son qoyan rəşadətli Azərbaycan Ordusu və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin misli görülməyən hərbi, siyasi, iqtisadi fəaliyyətləri haqqında geniş



məlumat dərc olunub.

Eyni zamanda, məlumatlar xronoloji ardıcıllıqla, müvafiq fotolar və hadisələrin müəllif tərəfindən özünəməxsus qaydada şərhi ilə təqdim edilib.

Kitabın nəşr olunmasına dəstək göstərən hər kəsə, xüsusilə də Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əliyevə xüsusi minnətdarlığını bildirən Elçin Mansurov fikirlərinə belə davam edib: “1980-ci illərin əvvəllərində Zori Balayan tərəfindən yazılmış “Ocaq” əsərində həqiqəti əks etdirməyən faktlarla yanaşı, Azərbaycanın Ermənistandan üzr istəməli olduğu qeyd olunmuşdu. Bu, illərdir məni narahat edirdi. Vətən müharibəsində qazanılan Zəfərlə Azərbaycan həm öz gücünü bütün dünyaya göstərdi, həm də ədaləti döyüş meydanında bərpa etdi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu düşmənlə yalnız savaş meydanında döyüşsə də, erməni acizləri xislətlərinə uyğun olaraq cəbhədən kənarda yaşayan dinc Azərbaycan əhalisinə, körpələrə, uşaqlara, qadınlara, qocalara qarşı amansızlıq nümayiş etdirdilər. Bu səbəbdən “Kim üzr istəməlidir?” adlı kitabımda minə yaxın fakt göstərmişəm və kimin haqlı olduğunu mənbələr və reallıqlarla əks etdirməyə çalışmışam. Ümid edirəm ki, həmin faktlar həqiqəti öyrənmək istəyənlər üçün bir xəritə, bir mənbə rolunu oynayacaq".

# HİNDİSTANDA XRİSTİANLAR VƏ BÜTPƏRƏST TAYFALAR MÜQƏDDƏS MEŞƏLƏRİ BİRGƏ QORUYURLAR



Hindistanda xristianlar və bütpərəst tayfalar birlikdə müqəddəs meşələri və orada gizlənmiş ziyarətgahları qoruyurlar. “Apnews”-un dərc etdiyi məqalədə deyilir ki, təkcə Meqalaya ştatında 125 müqəddəs meşə var ki, bəzilərində bir çiçək və ya bir yarpağı belə qoparmaq olmaz.

Mavflanq meşəsini müqəddəs sayan kahin qəbiləsinin nəslindən olan Tambor Linqdo otların arasından keçərək, bitkiləri, ağacları, çiçəkləri, hətta daşları öz ailəsinin böyük üzvləri kimi hörmətlə salamlayır. İndi o, ictimai xadim və sahibkardır, bir vaxtlar əmisi onu bu meşəyə gətirərək demişdi: “Bu meşə sənin anandır”.

Müqəddəs meşə ölkənin şimal-şərqindəki Meqhalaya (“buludların məskəni” deməkdir) ştatının təpəlik ərazisində olan Mavflanq kəndi yaxınlığında yerləşir. Buludlu günlərdə cırcıramaların səsi və yarpaqlara düşən yağış damcılarının xışıltısı istisna olmaqla meşədə tam sakitlik hökm sürür. Ağacdan düşən yarpaqların örtdüyü torpağın üzərində orda-burda mamır basmış “müqəddəs daşlara” rast gəlinir, onlar uzun əsrlər boyu ilahilər və duaların oxunduğu qurbangah və ziyarətgah kimi xidmət göstərmişlər. Mavflanq Meqhalayada sayı 125-ə çatan müqəddəs meşədən biridir və bəlkə də insanlar arasında ən hörmət bəslənilən meşələrdəndir. Bu qədim meşələr əsrlər boyu yerli tayfalar tərəfindən qorunmuşdur.

Meqhalayada müqəddəs meşələrə sitayiş yerli xalqların dini inanclarına və mədəniyyətinə söykənən qədim təbiətə hörmət və mühafizə ənənəsinin bir hissəsidir. Yüz illərdir ki, yerli sakinlər müqəddəs saydıqları ağaclıq ərazilərə gəlib orada yaşayan tanrılara dualar oxuyur və qurban kəsirlər. Hər hansı formada təhqir qadağandır, tabu sayılır; Linqdo deyir: “İnsanların Allahla ünsiyyətinin sirri budur. Əcdadlarımız bu bağlara və meşələrə insan və təbiət arasında harmoniya məkanı kimi ehtiram bəsləyirdilər”.

Bu meşələrin çoxu ətraf kəndlər üçün əsas su mənbələri, həmçinin biomüxtəliflik xəzinələridir. Son illər yerli bütpərəst tayfalar və xristian icmaları, eləcə də dövlət qurumları ilə işləyən təbiəti mühafizə işçiləri meşələrin regionun ekosistemi və biomüxtəlifliyi baxımından elmi əhəmiyyəti barədə ictimaiyyətə maarifləndirmək və onları bu sahədə birgə fəaliyyətə həvəsləndirmək üçün aktiv fəaliyyət göstərirlər. “Bizim bu işimiz artıq kənd icmalarında öz bəhrəsini verir”, - deyə təbiət müdafiəçisi və unitarian kilsəsinin təqaüdə çıxmış din xadimi Morman bildirib. “Yerli qəbilələrin Xristianlığı qəbul etdiyi yerlərdə də meşələri qorumağa davam etdiklərini görmək bizi sevindirir”.

Paytaxtın Şimal-Şərqi Mədən Universitetinin Təbiət elmləri kafedrasının təqaüdçü professoru B.K.Tivari uzun illərdir ki, Meqhalayanın müqəddəs meşələrinin bioloji və mədəni müxtəlifliyini öyrənir. O, məmnunluqla qeyd edir ki, xristian inancı yerli əhaliyə meşəni və torpağı sevməyi, onu qorumağı qadağan etmir. Professor Tivari deyir: “Yerli tayfaların inancında hər şey müqəddəsdir: heyvanlar, bitkilər, ağaclar, çaylar. Yeni nəsil getdikcə təbiətdə ilahi və ya mənəvi prinsiplə bağlı heç bir əlaqə görmür, lakin ictimai mədəniyyət səviyyəsində, demək olar ki, hamı təbiətin qoruyucusu rolunu başa düşür və qiymətləndirir”.

Bəzi müqəddəs meşələr həm də əcdadların dəfn olunduğu məzarlıq yeridir. Xasi-Hilzdəki belə bir meşənin baş gözətçisi Hemfri Linqdo Rintatianqın sözlərinə görə, o, özü xasi inancına sitayiş edir, arvadı isə xristiandır: “Hər bir meşənin öz qayda-qanunu, qadağaları var. Bizim meşədə insanlar meyvə dərib yığa bilirlər, lakin onlara nəyisə yandırmaq qadağandır. Elə müqəddəs meşələr var ki, orada meyvələri ağaclardan yığmaq olar, amma onları meşədən çıxarmaq olmaz, orada yemək lazımdır. İnanılır ki, tanrılar qaydaları pozanları cəzalandırır”.

# SƏYAVUŞ HEYDƏROV: "İSLAMOFOBİYA BƏZİ DÖVLƏTLƏRİN, BEYNƏLXALQ TƏSİSATLARIN SİYASƏTİNƏ ÇEVRİLİB"

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun Trend-ə müsahibəsi*

**- Səyavuş müəllim, bu gün dünyada dini mühitdə cərəyan edən prosesləri necə dəyərləndirirsiniz?**

- Bu gün birmənalı olaraq deyə bilərik ki, din amili dünyada mədəni-əxlaqi dəyər çərçivəsindən çıxaraq kəskin şəkildə siyasiləşib. Tarixin müxtəlif dövrlərində olduğu kimi, təəssüf ki, bu gün də bəzi dairələr tərəfindən geosiyasi və geoiqtisadi maraqların təmin edilməsi üçün dindən vasitə kimi istifadə edildiyinin şahidi oluruq. Təcrübə göstərir ki, iddialı dövlətlər, beynəlxalq güc mərkəzləri hədəf seçdikləri ölkələri iqtisadi təzyiqlərlə öz maraqları istiqamətində yola gətirə bilmədikləri təqdirdə, etnik mənsubiyyəti, xüsusilə dini siyasi alətə çevirir, bundan yararlanmağa çalışırlar. Bu səbəbdən dini məsələləri mənəvi aspektlə yanaşı, təhlükəsizlik prizmasından da dəyərləndirmək zərurəti yaranıb. Müasir dövrün çağırışları fonunda milli və qlobal təhlükəsizliyin əsas komponentlərindən birini məhz dini təhlükəsizlik təşkil edir. Bu baxımdan ölkəmizin dini təhlükəsizliyinin təmin edilməsi istiqamətində atılan ilk addım real təhdidləri, dövrün şərtlərini və dünyadakı mövcud şəraiti nəzərə almaqdır. Yaxın Şərq təcrübəsi və orada hazırda davam edən proseslər bir daha açıq şəkildə göstərdi ki, dini təhlükəsizlik təmin olunmadan milli təhlükəsizliyə nəzarət etmək qeyri-mümkündür. Azərbaycanın qlobal maraqların və iddiaların toqquşduğu bir regionda yerləşməsini nəzərə alaraq sözügedən məsələ prioritet olaraq daim diqqət mərkəzində saxlanılır.

**- Bəs Azərbaycana dini mövqedən olan təzyiqlər barədə nə deyə bilərsiniz?**

- Bildiyiniz kimi, ölkəmiz uğurlu inkişaf modelini tətbiq edən mütərəqqi yanaşmalara sahib olmaqla yanaşı, tarixinə və dəyərlərinə sadiqdir. Şübhəsiz, bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi edən, ictimai-siyasi sabitliyi təmin edən, günü-gündən müasirləşən, işğalda olmuş torpaqlarını öz gücü ilə azad edən və nüfuzu artan bir ölkə kimi Azərbaycanı istəməyən qüvvələr də az deyil. Bunu son vaxtlar Qərb dairələrinin niyyət və məqsədlərində sezmək mümkündür. Azərbaycanın islamofobiyaya qarşı qətiyyətlə mübarizə aparması ona qarşı beynəlxalq dairələrin təhdid və təzyiqlərinin artması ilə nəticələnib.

Eyni zamanda, təəssüf doğuran məqamlardan biri də siyasiləşmiş İslam ideologiyalarının Azərbaycana ixrac edilməsi cəhdləridir. Bütün bu proseslərin fonunda cəmiyyətdə milli-mənəvi, tolerant, multikultural dəyərlərin qorunub saxlanılması ilə yanaşı, gənclər arasında təbliğ edilməsi, eləcə də hazırda dünyada gedən qloballaşma prosesindən geri qalmamaq olduqca vacibdir.

**- Ötən həftə keçirilən, Azərbaycanın mədəni, dini həyatında yeni çalarlara yol açan "Dinlərarası harmoniya" festivalı barədə təəssüratlarınızı bilmək istərdik.**

- Azərbaycan dövlət-din münasibətlərinin inkişafı baxımından nümunəvi ölkədir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət-din münasibətləri modeli cəmiyyətin sağlam inkişafı, milli-mənəvi dəyərlərin qorunması, insanların dini etiqadına olan hörmət və ehtiram baxımından əvəzolunmaz xarakter daşıyır. İstər qanunvericilik müstəvisində təsbit edilən din və vicdan azadlığı, istərsə də dövlətin siyasi xəttində din və dindarlara olan qayğıkeş münasibət ölkəmizin dinamik inkişafına, milli birlik və həmrəyliyə böyük töhfə verməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində növbəti dəfə gənclərin milli-mənəvi dəyərlərə sadiqlik ruhunda tərbiyə edilməsini mühüm vəzifələrdən biri kimi qarşımıza qoydu. Bu vəzifənin icrası fonunda Azərbaycanda fəaliyyət göstərən dini qurumların təşəbbüsü ilə keçirilən festival vasitəsilə ölkəmizdəki dinlər və icmalararası harmoniya mühitini əyani şəkildə nümayiş etdirmək, həmçinin cəmiyyətdə xüsusilə gənclər arasında mənəvi dəyərlərin, tolerant və multikultural ənənələrin təbliği imkanını əldə etmiş olduq. Dini qurumların fəaliyyətini əks etdirən fotosərgi, sənədli filmlər, videoçarxlar və musiqi proqramı, eləcə də 44 günlük Vətən müharibəsində qazanılan parlaq Zəfər sayəsində azadlığına qovuşan dini abidələrin işğaldan əvvəl və sonrakı dövrünü əks etdirən "Qarabağ stendi" böyük rəğbətlə qarşılandı. Auditoriya müxtəlif mənşəli, fərqli maraq dairəsi olan insanlardan ibarət idi. Festival "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" konfransına qatılan xarici qonaqlarda da böyük maraq doğurdu. İlk festivala çoxsaylı iştirakçının qatılması bu layihənin davamlı olacağından və öz məqsədinə çatacağından xəbər verir. Həmçinin belə bir festivalın təşkili ilə Azərbaycanda dini etiqad azadlığının yüksək səviyyədə təmin edilməsi, bütün dinlərin daşıyıcılarına bərabərhüquqlu münasibətin göstərilməsi, eləcə də dinlərarası harmoniyanın inkişafına dəstək verilməsi bir daha nümayiş olundu.

**- Qeyd etdiyiniz "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" konfransında bildirdiniz ki, islamofobiyaya qarşı mübarizə metodları konkretləşdirilməlidir. Bu barədə ətraflı şərh verə bilərsinizmi?**

- Hazırda Fransa və bəzi Avropa ölkələrində islamofobiyanın vüsət alması olduqca narahatedici məqamdır. Bu, qısa müddətdə baş verən bir hadisə deyildir. Uzun müddət müəyyən maraqlı dairələr, dövlətlər tərəfindən sistemli şəkildə alt qatlarda aparılan "işlər"in, planların nəticəsidir. Məhz buna görə bu neqativ təzahürün fəsadları ilə yanaşı, səbəbləri üzərində düşünmək lazımdır. Günümüzdə bu təhlükəli tendensiyanın getdikcə kəskinləşməsi gələcəkdə bəşəriyyəti dinlərarası münaqişə ilə üz-üzə qoya bilər. İslamofobiya tendensiyasının daha da güclənəcəyi, nəticədə dinlərin mahiyyətinin və funksiyalılığının itirilməsi, yaxud xristianofobiya ilə nəticələnəcəyi proqnozu özünü doğrultmaqdadır. Bu məqamda bəzi siyasi güclərin hansısa dini düşüncə daşıyıcılarının destruktiv, radikal hərəkətlərini ümumiləşdirib bütöv bir icmaya, bəzən dövlətə aid etməsi onların məkrli planlarının üzdə görünən hissəsidir. Belə bir halda, bəşəriyyətin təhlükəsizliyi, birliyi üçün qlobal təsisatların funksiyalarının əsasında duran konsepsiyalara yenidən baxılması, bu təsisatların ədalət prinsipinə sadiq qalmaqla gücləndirilməsinin qaçılmaz olması üzə çıxır. İslamofobiyanın "Fransa nümunə"sində insan hüquqlarının pozulması gözardı edilə bilməz. Yaxın Şərqdə baş verən proseslər də ciddi siqnal olmalıdır. Bu artıq lokal, etnik münaqişə xarakteri daşımır. Dünya birliyi, beynəlxalq təşkilatlar səviyyəsində buna adekvat reaksiya verməlidir. Beynəlxalq təşkilatların fəaliyyətsizliyi təəssüf doğurur. Əgər BMT səviyyəsində "İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü" elan edilibsə, ona qarşı mübarizə metodologiyası da müəyyənləşdirilməlidir. Daha çox söz formatında yox, əməli – yol xəritəsi formatında ərsəyə gətirilməlidir. Biganəlik və sadəcə sözdə qalan addımlar atmaqla bu təhlükənin qarşısını almaq qeyri-mümkündür. Bu məqamda Azərbaycanda formalaşmış strategiyaya diqqət çəkmək istərdim. Elə "Dinlərarası harmoniya" festivalında da bir daha bu platforma sərgilənmiş oldu. Azərbaycanda bütün dinlərin nümayəndələrinin bir ailə kimi yaşamalarının, dini qurumların fəaliyyətlərinə yaradılan şəraitin şahidi olduq.

Azərbaycan daim İslam həmrəyliyinin gücləndirilməsi, İslam dəyərlərinin təbliği istiqamətində dünyada fəal iş aparır. Cənab Prezident İlham Əliyev qeyd etdiyiniz konfransın iştirakçılarına müraciətində növbəti dəfə islamofobiya ilə bağlı narahatçılığını ifadə edərək, islamofobiyanın mahiyyəti, yaranma səbəbləri və ona qarşı mübarizənin vacibliyini gündəmə gətirdi. Bütün iştirakçılar arasında müzakirələr aparılmasına yol açan bu müraciətdə, xüsusilə çox incə və həssas məsələlərə toxunuldu. Biz islamofobiyanı əvvəllər yalnız aşağı səviyyədə müşahidə edirdiksə, cənab Prezident bu tendensiyanın artıq beynəlxalq təşkilatlar – Avropa Parlamenti, Avropa Şurası səviyyəsində təbliğ və təşviq edilməsini dilə gətirdi. Dünya ölkələrinin, xalqların istinad etdiyi, ümid bağladığı bu təşkilatlar artıq insanları sülhə birliyə aparmaqla deyil, dağıdıcılıqla məşğuldurlar. Cənab Prezidentin müraciətində göründü ki, bu proses olduqca təhlükəlidir, gecikmədən dərhal mübarizə tədbirlərinə, əməli fəaliyyətə keçməyin zamanı çatmışdır.

Amma bir reallığı da vurğulamalıyam ki, islami baxışlardakı boşluqlar bəzi Qərb dairələrinin islamofobiyanı siyasətə çevirməyi və onun əsasında ideologiya formalaşdırılması işini daha da asanlaşdırır. Bu baxımdan islami dəyərlərin dəyişən, (İslamda təhsil, dünyəvi təhsilə münasibət, uşaqların təhsildən uzaqlaşdırılması, qadına verilən hüquq, təqlid, təqiyyə və s.) və dəyişməz prinsiplərinin ayırd edilməsinin zamanı çatmışdır. İslamın meydana çıxdığı dövrlə müqayisədə bugünkü sosial münasibətlər də xeyli dəyişikliyə məruz qalıb. Müasir dövrün çağırışları, əksər İslam ölkələrindəki tənəzzül və durğunluq, həmçinin elmi, innovativ texnologiyaların sürətli sıçrayışı nəzərə alınmaqla din və elmin vəhdətinin, İslamın dünyəvilik prinsiplərinin islami dəyərlər əsasında aktuallaşdırılması zərurəti araşdırma mövzusu olmalıdır.

**- İslamda dünyəvilik dedikdə nə nəzərdə tutursunuz?**

- Bu gün dünyada gerçəkliyə baxarkən və ittihamedici mövqe seçərkən yalnız gördüklərimiz deyil, həm də necə görünməyimizi nəzərə almalıyıq. Dinin şərhindəki bəzi xətalar, boşluqlar bu kimi mənfi təzahürlərə yol açır. Tarixən müxtəlif dövrlərin siyasi konyukturası və ictimai nizamına uyğun verilmiş dini şərhlər günümüzdə süni şəkildə aktual saxlanılmaqdadır. Dini düşüncə elmi faktlara qarşı olduqda, müasir çağırışlarla ziddiyyət təşkil etdikdə, həyatın ümumi inkişaf qanunauyğunluqları ilə ayaqlaşmadıqda, o da eyni dərəcədə destruktiv olur və əlavə konflikt mənbəyinə çevrilir. Bu səbəbdən, dini baxışlar yenilənməli, canlanmalı, dinamik və proqressiv olmalıdır. Dinin dəyişkən prinsiplərinə əsrlər boyu müxtəlif düzəlişlər edilib, həmin dövrün reallığı nəzərə alınıb. Bu gün isə daim yenilənən dünyada dinin dəyişkən prinsipləri "tabu" elan olunub. Bu yanaşma və baxış bucağı mütləq şəkildə dəyişilməlidir. Əks halda, sadalanan bütün nüanslar birləşib dərin anlaşılmazlıq, ziddiyyət və münaqişə yaratmağa imkan tapacaqdır. Müəyyən zaman və məkana uyğun təlimə çevrilmiş və ya fərdlərin düşüncəsi olmuş bəzi şərhləri nisbilikdən çıxarıb təkəbbürlülüklə hamı və hər zaman üçün gerçək, keçərli elan etmək cəhdləri müasir dövrün reallıqları ilə ziddiyyət təşkil edir. Bu cür təfəkkür fanatizmi, bu isə öz növbəsində nifrət və zorakılığı qidalandırır. Fanatizm fundamentalizmlə birləşib mürtəce baxışları gücləndirir, bunlar isə fərqli inanc və düşüncəyə qarşı sərt reaksiya doğurmaqla cəmiyyətin əsaslarını, bütün demokratik dəyərləri, adından çıxış etdikləri dinlərin dəyərlərini heçə endirməklə mənəvi böhranı şərtləndirir. Belə ki, əsrlər boyu adət-ənənələrdən gələrək dinə hopmuş, dini hökmlər kimi insanlara sırınan xüsusiyyətlərlə dinin sabit, dəyişilməz prinsiplərini ayırd etməyin zamanı çatıb.

Öncə də vurğuladığım kimi, bu gün islamofobiya artıq bir qəzəb, nifrət səviyyəsinə gəlib çatmaqla bəzi dövlətlərin, beynəlxalq təsisatların siyasətinə çevrilib. Görünən odur ki, bunun əsasında formalaşdırıb kütləyə aşılanan ideologiyanın qarşısını almaq mümkün olmayacaq və islamofobiya bütün planeti əhatə edəcəkdir. İslamofobiyanın arxasınca xristianofobiyanın gələcəyi antisemitizm, ksenofobiyanın mövcudluğu fonunda istisna təşkil etmir.

Azərbaycan islamofobiyadan ən çox əziyyət çəkən ölkələrdən biridir. 30 illik münaqişənin uzanmasında beynəlxalq təşkilatların din təəssübkeşliyi də böyük rol oynayıb. Ölkəmiz isə bunun müqabilində həmişə sülhpərvər missiyası, tolerantlıq və multikultural siyasəti ilə fərqlənib. Azərbaycan istər İslam, istər xristian dünyası üçün çox uyğun olan bir strategiya ərsəyə gətirib. Bu gün bizim ölkəmizdə həmrəylik, birlik özünün ən yüksək səviyyəsindədir. Azərbaycanda formalaşmış tolerantlıq, multikulturalizm siyasəti dinc, birgəyaşayış ənənəsi sülhə aparan ən effektiv yol xəritəsi kimi qəbul edilməlidir. Ölkəmiz ərazicə çox böyük olmasa da, onun ərsəyə gətirdiyi platforma sanki dünyanın xilası üçündür. Azərbaycanın bu strategiyası artıq tarixin, qarşıdurmaların, humanitar fəlakətlərin sınağından keçib, özünü tam doğrultmuşdur.

## SƏYAVUŞ HEYDƏROV: "AZƏRBAYCANDA BÜTÜN XALQLARIN, DİNLƏRİN NÜMAYƏNDƏLƏRİ BİR AİLƏ KİMİ YAŞAYIRLAR"



Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Respublikamızda mövcud olan bu müxtəliflik bizim zənginliyimiz, milli sərvətimizdir. Prezident İlham Əliyevin dediyi kimi, biz bu milli sərvəti qorumalı və gələcək nəsillərə aşılamalıyıq.

Bu fikirləri Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov Bakıda keçirilən "Dinlərarası harmoniya" festivalında bildirib.

Bu festivalı rahat birgəyaşayışın, multikulturalizmin nümunəsi hesab edən Komitə sədrinin müavini deyib: "Bu gün iştirakçılarımız bu tədbirə qatılmaqla bizimlə birlikdə olduqlarını nümayiş etdirdilər. Bu isə ölkədə milli dini həmrəyliyin hansı səviyyədə olduğunu göstərdi. Çalışacağıq ki, bu festivallar davamlı olsun və respublikamızın müxtəlif bölgələrində keçirilsin".

## MULTİKULTURALİZM QIŞ MƏKTƏBİNİN İŞTİRAKÇILARI AZƏRBAYCANDAKI DİNİ TOLERANTLIQ MÜHİTİ BARƏDƏ MƏLUMATLANDIRILIB



Martın 11-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin mühüm layihələrindən olan (BBMM) "Sabahın liderləri: Gənclər "sivilizasiyaların toqquşması"na qarşı" adlı XIV Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçıları Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində olublar.

Komitə sədrinin müavini Gündüz İsmayılov qış məktəbinin iştirakçılarına Azərbaycanda hökm sürən etnik və dini tolerantlıq mühiti, komitənin fəaliyyəti barədə ətraflı məlumat verib. Bildirib ki, ölkədəki müsəlman və qeyri-müsəlman icmalar Dövlət Komitəsi tərəfindən qeydiyyata alınır.

"Azərbaycan əhalisinin 96 faizi müsəlmandır. Digər 4 faizə isə rus pravoslavlar, gürcü pravoslavlar, dağ yəhudiləri, Avropa yəhudiləri, gürcü yəhudiləri, bəhailər və başqaları daxildir. Dövlət Komitəsində 1000-ə yaxın dini icma qeydiyyatdan keçib. Bunlardan 37-si qeyri-islam, digərləri isə İslam dininə aid icmalardır. Bundan əlavə, ölkəmizdə 2500-ə yaxın məscid var, 14 kilsə və 7 sinaqoq fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycanda 2 bəhai və 1 Bakı Krişna Şüuru icması da fəaliyyətdədir", - deyə G.İsmayılov qeyd edib.

Azərbaycanda hər bir vətəndaşın vicdan azadlığının təmin olunduğunu deyən komitə sədrinin müavini bildirib ki, ölkəmizdəki insanların istədiyi dinə inanmaq və onun sitayiş etmək hüququ var.

Ölkəmizdə dinlərarası və məzhəblərarası münasibətlərə də toxunan Gündüz İsmayılov bildirib: "Azərbaycanda İslamın hər iki məzhəbinin nümayəndələri eyni məsciddə ibadət edə bilir, hətta vəhdət namazı qılınır. Habelə müxtəlif dinlərin mənsubları qardaşcasına yaşamağı və Vətən uğrunda birgə vuruşmağı bacarırlar. 2020-ci ildə 44 günlük müharibə bunun bariz nümunəsidir.

İşğaldan azad olunmuş ərazilərdə ermənilər tərəfindən dağıdılmış məscidlər və kilsələr bu gün bərpa edilir. Vaxtilə Ermənistan tərəfindən işğal edilmiş ərazilərimizdəki məscidlərdə müsəlmanların dini heysiyyətinə toxunmaq üçün donuz saxlanılıb. Bunu ermənilərin özlərinin çəkib paylaşdıqları şəkillərdə də görmək mümkündür. Amma buna baxmayaraq, biz Bakının mərkəzindəki erməni kilsəsini qoruyub saxlamışıq. Çünki bizim heç bir dinlə, heç bir xalqla problemimiz yoxdur. Bütün ibadət evlərinə Allahın evi kimi baxırıq".

Görüş qış məktəbi iştirakçılarının suallarının cavablandırılması ilə yekunlaşıb.

## GÜNDÜZ İSMAYILOV: "FRANSADA DÖVLƏT SEKTORUNDA MÜSƏLMANLARA QARŞI AYRI-SEÇKİLİYƏ ÖZƏL SEKTORDAN DAHA ÇOX RAST GƏLİNİR"



Fransada dövlət müəssisələrində müsəlmanlara qarşı ayrı-seçkilik hallarına özəl sektordakından daha çox rast gəlinir.

Bu sözləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov Bakıda islamofobiyaya qarşı mübarizəyə həsr edilmiş beynəlxalq konfrans çərçivəsində keçirilən "Qərbi Avropada müsəlmanlara münasibətdə oxşarlıqlar və fərqliliklər, müsəlman ümmətində əsas insan hüquqları" mövzusunda plenar iclasda söyləyib.

Avropa ölkələrində islamofobiyanın güclənməsinin səbəblərindən bəhs edən Dövlət Komitəsi sədrinin müavini bildirib: "Bəzi Avropa ölkələrində islamofobiya cəmiyyətdən dövlətə deyil, dövlətdən cəmiyyətə yayılır. 2019-cu ildə Fransada islamofobiya halları dövlət müəssisələrində 369 təşkil edib, özəl sektorda isə 197 olub".

Avropada müsəlmanlar üçün ibadət evlərinin tikilməsi ilə bağlı problemlərdən söz açan G.İsmayılov deyib ki, əhalisinin təqribən 10 faizi müsəlman olan Fransada 2500 məscid var. Həmin 2500 məscidin mütləq əksəriyyəti bir otaqdan ibarətdir. Fransa nümunəsində müsəlman icmalarının İslam adətlərinə uyğun məscidlər tikməyə maddi imkanları yoxdur. Fransa dövləti isə digər ölkələrdəki müsəlmanlardan maddi dəstək alınmasını qəbul etmir. Bunu "Fransanın islamlaşdırılması" adlandırır.

## MÜQƏDDƏS PAUL KAFEDRALI 300 İLLİK GİZLİ KİTABXANASINA ZİYARƏTÇİLƏRİN GİRİŞİNƏ İCAZƏ VERİB



Britaniyadakı Müqəddəs Paul Kafedralı ilk dəfə olaraq Ümumdünya Kitab Günü münasibətilə 300 illik gizli kitabxanasına ziyarətçilərin girişinə icazə verib. Bu barədə "The Guardian" yazıb.

Kafedral rəhbərliyinin açıqlamasında bildirilib ki, 7 Mart Ümumdünya Kitab Gününü qeyd etmək üçün seçilmiş ziyarətçilərə qapalı kitabxanaya girməyə fürsət yaradılıb: "Kafedral bəzi şanslı qonaqlarına həqiqətən öz növündə unikal olan bu səfərdə Müqəddəs Paul Kafedralının tarixinə və möcüzələrinə daha dərindən qərq olmaq fürsəti təqdim edir".

Ancaq bu şərəfə nail olmaq pulsuz başa gəlməyib. Kitabxanaya daxil olmaq arzusunda olanlar "Airbnb" saytında bron edərək bir gecəyə 7 funt sterlinq ödəməli olublar. Londonun qədim kafedral kitabxanasının "gizli otağında" sadəcə bir gecə keçirmək xoşbəxtliyini yaşamaq üçün yetkinlik yaşına çatmış iki qonaq dəvət olunub.

Qonaqlar kafedrala dekan qapısından daxil olaraq 300 il əvvəl ingilis memarı Ser Kristofer Ren tərəfindən layihələndirilmiş spiral pilləkənlər vasitəsilə yeni bərpa olunmuş kitabxanaya qalxıblar. 1709-cu ildə yaradılan kitabxanada 22 mindən çox müxtəlif mətndən ibarət nadir kolleksiya toplanıb. Burada bir çox orta əsr əlyazma kitabları və tumarlarına (lülələnmiş ağ və ya yazılı kağız; namə, kitab, dəftər), o cümlədən kitab çapının ilk çağlarında işıq üzü görən kitablara rast gəlmək mümkündür. Bu geniş kolleksiya bir sıra məşhur nəşrlərin qarşıdan gələn son nəşrləri ilə taclanır.

Qonaqları dekan qarşılayaraq kafedralı gəzdirib və onlar üçün qonşuluqdakı restoranda şam yeməyi təşkil olunub. Bütün gecəni mütaliə edərək keçirən qonaqlara səhər yeməyindən sonra hələ çap olunmamış kitabları, o cümlədən Holli Ceksonun "Reyçel Praysın Qayıdışı" və Con Qrişamın "Kaminonun Kabusları" kitablarının imzalanmış və möhürlənmiş ilk nüsxələri (nümunələri) təntənəli şəkildə təqdim olunub. Bundan sonra "möcüzələr gecəsi" kafedralın məşhur günbəzinin zirvəsinə qalxma ilə başa çatıb.

Müqəddəs Paul Kafedralı 1675-ci ildə tikilib və burada Britaniyanın ən qiymətli incəsənət və tarixi əsərlərindən bəziləri qorunur. Kafedral hər il bir milyondan çox ziyarətçi qəbul etsə də, İkinci Dünya Müharibəsindən sonra ilk dəfədir ki, kiməsə kafedralın daxili hissəsində gecələmək imkanı verilib. Müharibə dövründə bir qrup könüllü kafedralı mümkün bombalanma zamanı çıxan yanğından qorumaq üçün gecələr burada növbətçilik edirdi.

# DAXİLİ QOŞUNLARIN HƏRBİ HİSSƏSİNDƏ "AZƏRBAYCANDAKI DİNİ MÜHİTƏ XARİCİ VƏ DAXİLİ TƏHDİDLƏR" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB



Martın 28-də "Dini radikalizmə qarşı mübarizənin effektivliyinin artırılması məqsədilə maarifləndirmə istiqamətində birgə işin təşkilinə dair 2023-cü il üçün Tədbirlər Planı"na uyğun olaraq Daxili Qoşunların Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində "Azərbaycandakı dini mühitə xarici və daxili təhdidlər" mövzusunda seminar təşkil olunub.

Tədbiri giriş sözü ilə açan hərbi hissə komandirinin müavini polkovnik Elsevər Fətəliyev hərbi hissələrdə bu cür tədbirlərin keçirilməsinin əhəmiyyətindən bəhs edib. Bildirib ki, Azərbaycan ictimai-siyasi sabitliyinə görə nümunəvi dövlətlərdəndir və qazandığımız bu uğurları həzm edə bilməyən dairələr zaman-zaman din pərdəsi altında öz ideologiyalarını burada yaymağa, cəmiyyətimizdə dini zəmində ayrı-seçkilik toxumları səpməyə çalışırlar. Ancaq onların bu cəhdləri hər zaman iflasa uğrayıb, çünki Azərbaycan xalqı dinin bölücü deyil, birləşdirici amil olduğunu yaxşı bilir və onu özünün mənəvi dəyəri kimi qoruyur.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili şöbəsinin əməkdaşı Saleh Aslanov milli-mənəvi dəyərlərin hər bir cəmiyyət üçün birləşdirici amil olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycan dövləti bütün dinlərin nümayəndələrinin hüquq bərabərliyini təmin edir. Ölkədə müxtəlif dini etiqad mənsubları arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, həmçinin dini xurafat, fanatizm, radikalizm və ekstremizmin, dini zəmində qarşıdurma və ayrı-seçkilik hallarının, digər mənfi təzahürlərin qarşısının alınması istiqamətində dini maarifləndirmə işi aparılır. Müxtəlif dairələrin Azərbaycanda milli-dini zəmində ayrı-seçkilik yaratmaq cəhdlərinin hər zaman olduğunu deyən natiq Vətən müharibəsinin davam etdiyi günlərdə də bu cəhdlərin müşahidə edildiyini vurğulayıb. Ancaq Azərbaycan xalqı öz müdrikliyini bir daha nümayiş etdirərək sahib olduğu vəhdətin pozulmasına imkan vermədi və öz şanlı ordusuna, Müzəffər Ali Baş Komandanına güvəndi, bir yumruq kimi birləşərək erməni faşizmini, erməni separatizmini məhv etdi. Əlbəttə, müəyyən dairələr Azərbaycanın günü-gündən inkişaf etməsi, regionun əsas söz sahiblərindən birinə çevrilməsini bundan sonra da həzm edə bilməyəcəklər və hər vəchlə onun qüdrətlənməsinə mane olmağa, milli və dini zəmində ayrı-seçkilik salmağa, vəhdətimizi pozmağa çalışacaqlar və bunu əvvəlki dövrlərdən daha geniş miqyasda etmək istəyəcəklər. İndiyədək bu mənfur istəklərinə nail olmayıblar və gələcəkdə də nail ola bilməmələri üçün gecə-gündüz Vətənimizin bütövlüyü



üçün çalışmalı, milli-mənəvi dəyərlərimizi qorumalı və vəhdətimizi pozmağa çalışanlara layiqli cavab verməliyik.

Vətənə xidmətin ülviliyindən danışan ilahiyyatçı Ağa Hacıbəyli bu şərəfli missiyanın daşıyıcıları qarşısında çıxış etməkdən məmnunluğunu ifadə edib. Bildirib ki, Azərbaycan xalqı hər zaman özünün tolerantlığı ilə seçilib, bütün xalqların, dinlərin nümayəndələrinə qucaq açıb, yardım göstərib. Ancaq təəssüf ki, özü hər zaman haqsızlığa, ədalətsizliyə, soyqırımlarına məruz qalıb. Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin də dediyi kimi, torpaqlarımız işğalda ikən erməni faşizminə qarşı beynəlxalq müstəvidə heç bir addımın atılmaması, bir daha sübut etdi ki, ikili standartlarla idarə olunan müasir dünyada haqlı olmaq hələ hər şey demək deyil, haqqını almaq üçün mütləq güclü olmalısan. İstər 44 günlük Vətən Müharibəsində qazanılan Böyük Zəfər, istərsə də ötən il bir sutkadan da qısa müddətdə uğurla icra olunan anti-terror əməliyyatı, ərazi bütövlüyümüzün, suverenliyimizin bərpası çoxlarına dərs oldu və göstərdi ki, Azərbaycan xalqı öz müqəddəratını özü müəyyən edir, qarşısında duran bütün hədəfləri dəf etməyə qadirdir.

# XI ƏSRƏ AİD ÜSTÜRLAB MÜSƏLMANLAR, YƏHUDİLƏR VƏ XRİSTİANLAR ARASINDAKI ELM MÜBADİLƏSİNDƏN XƏBƏR VERİR



Üzərində ərəb və ibrani dillərində yazıları olan XI əsrə aid İslam üstürlabının müəyyən edilməsi onu indiyə qədər kəşf edilmiş ən qədim nümunələrdən və dünyada bilinən bu tip nadir obyektlərdən birinə çevirir. Sözügedən astronomiya aləti əsrlər boyu İspaniya, Şimali Afrika və İtaliyadakı müsəlmanlar, yəhudilər və xristianlar tərəfindən uyğunlaşdırılmış, tərcümə edilmiş və tənzimlənmişdir.

Kembric Universitetinin Tarix fakültəsində çalışan doktor Federika Qiqante onu İtaliyanın Verona şəhərindəki muzeydə kəşf edib və onu "Nuncius" jurnalında dərc edib.

Doktor Qiqante bildirib ki, ilk dəfə üstürlabın şəklinə bu yaxınlarda "Fondazione Museo Miniscalchi-Erizzo" saytında yerləşdirildikdə rast gəlib. Qadın muzey işçilərindən əşya haqqında maraqlanıb. "Muzey bunun nə olduğunu bilmirdi və saxta ola biləcəyini düşünürdü", - deyə doktor Qiqante qeyd edib. "İndi bu, onların kolleksiyasındakı ən vacib əşyadır".

"Muzeyi ziyarət edəndə və üstürlabı yaxından nəzərdən keçirəndə gördüm ki, onun üzərində təkcə gözəl həkk olunmuş ərəb yazıları deyil, həm də ibrani dilində zəif yazılar var. Mən onları ancaq pəncərədən gələn parlaq gün işığında seçə bildim. Bu, çox maraqlı idi... Bu, sadəcə inanılmaz dərəcədə nadir əşya deyil. Yüz illər ərzində ərəblər, yəhudilər və xristianlar arasında elmi mübadilənin sübutudur... Verona üstürlabı əldən-ələ keçdikcə çoxlu modifikasiyalara, əlavələrə və uyğunlaşmalara məruz qalıb. Ən azı üç ayrı istifadəçi bu əşyaya tərcümə və düzəlişlər əlavə etmək zərurəti hiss ediblər: ikisi ibrani dilindən, biri isə Qərb dilindən istifadə edib", - deyə tədqiqatçı diqqətə çatdırıb.

Keçmişdə bir növ smartfon və ya noutbuk rolu oynayan üstürlab istifadəçinin əlinə sığan, vaxt və məsafələri hesablamağa, ulduzların mövqelərini təyin etməyə və hətta ulduz falı ilə gələcəyi proqnozlaşdırmağa imkan verən, daşına bilən iki ölçülü kainat modeli idi. İslam üstürlabları üzrə ekspert və İslam elmi alətlərinin sabiq mühafizəçisi olan doktor Qiqante əsas elmi, dizayn, konstruksiya və xəttatlıq xüsusiyyətlərini təhlil edərək "Verona üstürlabı"nın tarixini təyin edib və yerini müəyyənləşdirib. O, əşyanın Əndəlüsə aid olduğunu müəyyən edib, həmçinin oyma tərzinə və tərəzilərin tərs tərəfdəki düzülüşünə görə onu İspaniyanın Əndəlüs bölgəsində hazırlanmış alətlərlə uyğunlaşdırıb.

Lövhənin bir tərəfində ərəb dilində "Kordovanın eni üçün 38°30′", digər tərəfində isə "Toledo eni üçün 40°" sözləri yazılıb. Doktor Qiqante üstürlabın müsəlmanlar, yəhudilər və xristianlar arasında birgəyaşayış və mədəni mübadilənin mərkəzi olduğu vaxtda Toledoda hazırlandığını ehtimal edir. Üstürlabın üzərində müsəlman dualarından sətirlər və duaların adları da həkk olunub ki, onun ilkin istifadəçiləri gündəlik namazlarını vaxtında qıla bilsinlər.

Üstürlabın üzərindəki imza isə belədir: "İshaq üçün [...] / Yunusun əsəri". Bu kəlam üstürlab düzəldildikdən bir müddət sonra, ehtimal ki, sonrakı sahibi üçün həkk olunub. Bu iki ad, yəni İshaq və Yunus ərəb qrafikası ilə yazılmış ibrani adları ola bilər və bu təfərrüat onu göstərir ki, nə vaxtsa sözügedən əşya İspaniyada danışıq dili ərəb dili olan səfərad yəhudi icması daxilində dolaşıb.

Əlavə edilmiş ikinci lövhədə tipik Şimali Afrika enlikləri həkk olunub, bu isə əşyanın mövcudluğunun başqa bir dövründə Mərakeş və ya Misirdə istifadə olunma ehtimalını ortaya çıxarır.

Digər ibranicə yazılar Əqrəb, Oxatan, Oğlaq, Dolça, Balıq və Qoç astroloji bürclərinin ərəb adlarının tərcüməsidir. Doktor Qiqante qeyd edir ki, bu tərcümələr ispan yəhudi eruditi İbrahim ibn Ezranın (1089-1167) 1146-cı ildə Veronada yazılmış, üstürlab haqqında mövcud olan ən qədim ibrani traktatındakı tövsiyələrini əks etdirir. Doktor Qiqante deyir ki, ibranicə yazıları əlavə edən şəxs həmin tövsiyələrə əməl etmiş ola bilər.

Üstürlabda təkcə ibrani dilində deyil, həm də bu gün istifadə etdiyimiz Qərb rəqəmləri ilə yazılmış düzəlişlər var. Doktor Qiqantenin fikrincə, çox güman, bu əlavələr Veronada latın və ya italyan dillərində danışanlar üçün edilib.

Ulduzun mövqeyinin hesablanması onun yaradıldığı səmanın vaxtını təxminən müəyyən etməyə imkan verir. "Yerin öz oxu ətrafında düz xətt üzrə deyil, dayanmaq üzrə olan fırfıra kimi "yırğalanaraq" fırlandığı, gecə-gündüz bərabərliyinin presessiyası adlanan anlayışa görə, ulduzların başımızın üstündəki mövqeləri daim dəyişir, təxminən hər 70 ildən bir 1 dərəcə. Ulduzların şəbəkədəki mövqeyini təhlil edərək hesablamaq olar ki, onlar ulduzların XI əsrin sonundakı vəziyyətinə uyğun yerləşdiriliblər və məsələn, eramızın 1068-ci ildə hazırlanmış digər üstürlabların mövqelərinə uyğundurlar", - deyə tədqiqatçı aydınlıq gətirib.

Güman edilir ki, üstürlab Verona zadəganı Lüdoviko Moskardonun (1611-1681) kolleksiyasına evlilik vasitəsilə Miniskalki ailəsinə keçməmişdən əvvəl daxil olub. 1990-cı ildə ailə kolleksiyaları qorumaq üçün "Fondazione Museo Miniscalchi-Erizzo"nu qurub.

# ALLAHIN ŞƏFQƏT EHSANI




Hər bir cəmiyyətdə müəyyən günlərin və hadisələrin şərəfli, uğurlu olduğuna inanan insanlar məhz həmin günlərdə sevinc və nəşə içərisində bir yerə toplaşaraq bayram keçirirlər. Lakin hər ümmətin özünəməxsus bayramları var. Qeyd etmək yerinə düşər ki, hər insanın müəyyən günlərdə əylənmək, bəzənmək, problemlərdən bir az uzaqlaşaraq istirahət etmək, qəm-qüssəni bir kənara qoyaraq şadlanmağa ehtiyacı var. İslam dini isə bu anlayışlarla yanaşı, bayramlara başqa mahiyyətlər də qazandırmışdır. Belə ki, dinimizə görə, əsl bayram küsülülərin barışdığı, fəqir-füqəranın yad edilərək üzünün güldüyü, qohum-əqrəbanın, qonum-qonşunun, xəstələrin ziyarət edildiyi sevinc günüdür. Üstəlik, səbir və ibadət dolu bir ayın – Qurani-Kərimin nazil olduğu, eyni zamanda bəşər övladının qəlbində şükranlıq duyğusunu oyadan, insanlarda humanist hisslər aşılayan, səbrin imtahanı olan orucun vacib qılındığı müqəddəs Ramazan ayının sonunda Uca Yaradan tərəfindən günahlarımızın bağışlandığını düşünmək bu müqəddəs və gözəl bayram sevincini birə-on artırır.

Bayramların sevinc, şadlıq, xoş əhval-ruhiyyə və insanlarda ruh yüksəkliyi yaratmaq xüsusiyyətindən başqa, digər cəhətləri ilə də cəmiyyət həyatında üstün yeri və dəyəri var. Dini şüur və duyğuların qüvvətləndiyi, insanlarda yaşamaq həvəsinin artdığı bayram günlərində bir qövmün, millətin və xalqın həyatında xüsusi əhəmiyyət daşıyan birlik və qardaşlıq düşüncəsi də güclənir. Bayram səhəri məscidlərə toplaşanların birlikdə və sidq-ürəkdən Allah-Təalaya yönəlmələri, Ona əfv və bağışlanma üçün dua etmələri ilə bərabər, xalqı, dövləti, ölkəsi üçün əmin-amanlıq, millətinin gələcəyi olan körpələrinin asayişi, rahatlığı üçün dua etmələri ayrı bir önəm daşıyır. Duanın hikməti isə müqəddəs dinimizdən hər kəsə məlumdur. Və dua kimi müdrik, çox əhəmiyyətli ritualı elliklə həyata keçirmək həm milli bağları gücləndirir, milli qürur hissini artırır, həm də bir xalqın, millətin haqq səsini Haqqın dərgahına çatdırır.

Bu mənada Ramazan insanlarda sosial həmrəylik və barış şüurunu gücləndirən bayramlardandır. Küsülülərin barışması, aralarında kin, nifrət olan insanların bir-birinə bəslədiyi mənfi duyğularının sevgiyə çevrilməsi, kiçiklərin böyüklərə sayğı, böyüklərin kiçiklərə sevgi göstərməsi, xəstələrin ziyarət edilməsi, veriləcək kiçik hədiyyələrlə uşaqların könüllərinin alınması, yaxınların, qohumların bir araya gəlməsi adətən bayram günlərində mümkün olur. Bütün bu sadalananlar cəmiyyəti formalaşdıran fərdləri bir-biri ilə yaxınlaşdıraraq dini bayramımızın milli bayrama çevrilməsinə, milli birliyin yaradılmasına və cəmiyyəti narahat edən problemlərin aradan qalxmasına təsir edən xüsuslardır.

Ramazan qəlbi imanla dolu hər kəsin başlamasını da, bitməsini də eyni sevinc və həyəcanla gözlədiyi aydır. Bəli, bir müqəddəs Ramazan ayı da uzun əsrlər, illər, aylar kimi ötüb keçir ömürlərdən, talelərdən, ömürlərə biçilmiş günlərdən. Ömür isə müdrikləşə-müdrikləşə yol gedir. Bu fəzilətli ayın içərisində daha bir imtahandan keçirik, bəlkə də, bir daha Allaha yaxınlaşa bildik, deyə bilmərik...

Ümid edirik ki, Ramazan ayında insanlarımızın xalqımızın əmin-amanlığı, rifahı, xoşbəxtliyi və dövlətimizin, ölkəmizin qüdrəti, xalqımızın səadəti, övladlarımızın xoşbəxt gələcəyi naminə etdiyi dualar Haqqın dərgahına çatar!

Həmişə bir yerdə, sevgi dolu bayramlar keçirmək diləyi ilə...

Qarşıdan gələn Ramazan bayramınız mübarək!

"Cəmiyyət və Din"

# KATOLİK KİLSƏSİ AKVİNALI FOMANIN VƏFATININ 750-Cİ İLDÖNÜMÜNÜ QEYD EDİR



Müqəddəs Akvinalı Fomanın vəfatının 750-ci ildönümü ərəfəsində katoliklərin Akvinalı Fomanın əmanəti kimi ehtiramla andıqları kəllə İtaliyanın cənubundakı Priverno şəhərinin daş döşənmiş küçələri ilə təntənəli yürüşlə aparılıb. Bu barədə "CNA" agentliyi məlumat yayıb.

Qərb sivilizasiyasının ən böyük mütəfəkkirlərindən hesab edilən, 1274-cü il martın 7-də yaxınlıqdakı Fosanova abbatlığında vəfat etmiş məşhur orta əsr filosofu və ilahiyyatçısının şərəfinə keçirilən yürüşə yepiskop Mariano Kroçiata başçılıq edib.

1585-ci ildə qonşuluqdakı Fosanova abbatlığının qurbangahında tapıldıqdan sonra əmanət onun "Mələk Həkimi"nin kəlləsi olduğunu göstərən notarial qaydada təsdiq edilmiş sənədlərlə birlikdə şəhərin XII əsrə aid kafedral kilsəsində ehtiramla qorunur.

Privernodakı Santa-Mariya-Annuziata Kafedralının baş keşişi Alessandro Trani deyir ki, Akvinalı Foma bu şəhərin himayədarı sayılır və bu himayədarlığın tarixçəsi keçmiş əsrlərə gedib çıxır. "Bura Müqəddəs Fomanın həyatının son günlərini keçirdiyi yerdir. Akvinalı Foma Maenza qalasında əmisi oğlunu ziyarət etmişdi və oradan müqəddəs bir yerə aparılmasını istədi, onu Fosanova abbatlığına apardılar və burada o, yer üzündəki səyahətini başa vurdu", - deyə keşiş Trani söyləyib.

48 yaşında xəstəlikdən vəfat edən Akvinalı Fomanın cəsədi 1369-cu ilə qədər Fosanova abbatlığında qorunurdu. Sonradan onun qalıqları Vaizlər ordeninin (Dominikan) təsis edildiyi və bu gün Yakobin Kilsəsində Akvinalı Fomanın məzarının olduğu yerə - Fransanın Tuluza şəhərinə köçürüldü.

Privernodakı kəllə hazırda Katolik Kilsəsində Müqəddəs Akvinalı Fomaya aid olduğu güman edilən iki kəllədən biridir. Tuluzdakı dominikanlar bu yaxınlarda Akvinalı Fomanın kəllə sümüyü üçün yeni bir relikvar sifariş ediblər.

Tədqiqatçılar Akvinalı Fomanın qalıqlarının həqiqiliyini müəyyən etmək üçün yerli hakimiyyət orqanlarının icazəsi ilə İtaliya və Fransada hər iki kəllə sümüyünün daha dərindən məhkəmə-tibbi ekspertizasının aparılması imkanlarını araşdırırlar.

Keşiş Trani etiraf edir ki, DNT testi bir gün hansı kəllənin Akvinalı Fomaya məxsus olduğunu sübut etməyə kömək edəcək. Lakin vurğulayır ki, son nəticədə "hər bir müqəddəs vasitəsilə olduğu kimi, insanların Müqəddəs Fomaya güclü sədaqəti onları əsl, orijinal Allah sevgisi ilə görüşə gətirib çıxarır".

Privernoda Akvinalı Fomanın şərəfinə təşkil olunmuş yürüş və bayram Vaizlər ordeni tərəfindən Müqəddəs Fomanın şərəfinə keçirilən ikiillik yubiley tədbirlərinin bir hissəsini təşkil edib. Dominikan ordeninin ikiqat yubiley ili 2025-ci il yanvarın 28-də, Akvinalı Fomanın anadan olmasının 800-cü ildönümündə Müqəddəs Foma Aktivat bayramından sonra başa çatacaq.

Akvinalı Foma 1225-ci ildə Romadan təxminən 75 mil cənub-şərqdə İtaliyanın Rokkaseka şəhərində anadan olmuşdur. Həmin vaxt şəhər Siciliya Krallığının tərkibində idi.

Vatikanın dövlət katibi, kardinal Pietro Parolin martın 7-də Fosanova abbatlığında messa həyata keçirib. Burada həmçinin Papa Sosial Elmlər Akademiyasının sponsorluğu ilə Akvinalı Foma və təbii hüquq mövzusuna həsr olunmuş konfrans keçirilib.

Roma Papası I Fransisk Müqəddəs Fomanın vəfatının 750-ci ildönümü münasibəti ilə keçirilən konfransda iştirak edən alimlərə məktub göndərib.

# ÇİNDƏ QƏDİM MƏBƏD AŞKARLANIB

Çinin şimalında yerləşən Şansi əyalətində Şimali Vey sülaləsinə (386-534-cü illər) aid buddist məbədi tapılıb.

Sinxua agentliyi xəbər verir ki, Şansi arxeologiya institutunun açıqlamasına görə, kral məbədi olduğu güman edilən qədim abidə Şimali Vey sülaləsinin saray xarabalıqlarından təxminən 300 metr məsafədə aşkarlanıb.

Tədqiqatçılar məbədin mərkəzində mirvari və mis üzüklərin olduğu kvadrat çuxur tapıblar. Eyni zamanda, içəridə bəziləri rənglənmiş, bəziləri isə qızıl ilə bəzədilmiş 200-dən çox buddist heykəli olub. Məbədin divarının rəsmlərlə boyandığı güman edilir.



# Mübarək Ramazan ayının gündəlik duaları

**Ramazan ayının 21-ci gününün duası:**
"Allahumməc'əl li fihi ila mərzatikə dəlila. Və la təc'əl liş-şeytani fihi ələyyə səbila. Vəc'əlil-cənnətə li mənzilən və məqila. Ya qaziyə həvaicit-talibin".
Tərcüməsi:
"İlahi, bu gün Sənin razılığına bais olan əməllərə doğru mənə yol göstər! Bu gün şeytanın mənə hökmranlıq yollarını bağla! Cənnəti mənim üçün mənzil və aramgah et! Ey tələb əhlinin ehtiyacını yerinə yetirən Allah!"

**Ramazan ayının 22-ci gününün duası:**
"Allahumməftəh li fihi əbvabu fəzlik. Və ənzil ələyyə fihi bərəkatuk. Və vəffiqni fihi limucibati mərzatik. Və əskinni fihi buhbuhati cənnatik. Ya mücibə də'vətil-muztərrin".
Tərcüməsi:
"İlahi, bu gün fəzl qapılarını üzümə aç, bərəkətlərini mənə göndər. Bu gün sənin razılığına bais olan işlərdə məni müvəffəq et, məni behiştin ən yaxşı yerində sakin et. Ey biçarələrin duasını qəbul edən Allah!"

**Ramazan ayının 23-cü gününün duası:**
"Allahumməğsilni fihi minəz-zunub. Və təhhirni fihi minəl-uyub. Vəmtəhin qəlbi fihi bitəqval-qulub. Ya muqilə əsəratil-muznibin".
Tərcüməsi:
"İlahi, bu gün mənim günahlarımı yuyub, məni eyiblərdən təmizlə! Bu gün qəlbimi təqva ilə xalis et! Ey günahkarların xətasına göz yuman Allah!"

**Ramazan ayının 24-cü gününün duası:**
"Allahummə inni əs'əlukə fihi ma yurzik. Və əuzu bikə mimma yu'zik. Və əs'əlukət-tovfiqə fihi li-ən utiəkə və la ə'siyək. Ya cəvadus-sailin".
Tərcüməsi:
"İlahi, bu gün Səni razı salan əməlləri Səndən istəyirəm. Səni qəzəbləndirən əməllərdən Sənə sığınıram. Sənə tabe olmaq və Sənə qarşı üsyan etməmək üçün yardım istəyirəm. Ey xahiş edənlərə bəxşiş verən Allah!"

**Ramazan ayının 25-ci gününün duası:**
"Allahumməc'əlni fihi muhibbən li-ovliyaik. Və muadiyən li-ə'daik. Mustənnən bisunnəti xatəmi ənbiyaik. Ya asimə qulubin-nəbiyyin".
Tərcüməsi:
"İlahi, bu gün məni Sənin dostlarını sevənlərdən, Sənin düşmənlərinlə düşmən olanlardan qərar ver! Məni sonuncu Peyğəmbərinin sünnəsinə əməl edənlərdən qərar ver! Ey peyğəmbərlərin qəlbinin hamisi olan Allah!"

**Ramazan ayının 26-cı gününün duası:**
"Allahumməc'əl sə'yi fihi məşkura. Və zənbi fihi məğfura. Və əməli fihi məqbula. Və eybi fihi məstura. Ya əsməəs-samiin".
Tərcüməsi:
"İlahi, bu gün mənim səylərimi qiymətləndir, günahlarımı bağışla, əməlimi qəbul et, eyiblərimi ört! Ey bəndələrini hamıdan yaxşı eşidən Allah!"

**Ramazan ayının 27-ci gününün duası:**
"Allahummərzuqni fihi fəzlu leylətil-Qədr. Və səyyir umuri fihi minəl-usri iləl-yusr. Vəqbəl məaziri və huttə ənniz-zənbə vəl-vizr. Ya rəufən bi-ibadihis-salihin".
Tərcüməsi:
"İlahi, bu gün mənə Qədr gecəsinin fəzilətini nəsib et! Bu gün mənim işlərimi çətinlikdən asanlığa doğru yönəlt! Üzrümü qəbul et, günah yükünü üstümdən götür! Ey saleh bəndələrinə qarşı mehriban olan Allah!"

**Ramazan ayının 28-ci gününün duası:**
"Allahummə vəffir həzzi fihi minən-nəvafil. Və əkrimni fihi bi-ihzaril-məsail. Və qərrib fihi vəsiləti ileykə min beynil-vəsail. Ya mən yəşğəluhu ilhahul-mulihhin".
Tərcüməsi:
"İlahi, bu gün mənə yaxşı əməllərin bəhrəsini bol et! İstəklərimi yerinə yetirməklə mənə kəramət göstər! Sənə yetmək üçün yollar içindən seçdiyim yolu özünə yaxın et! Ey israr edənlərin öz israrları ilə məşğul edə bilmədikləri Allah!"

**Ramazan ayının 29-cu gününün duası:**
"Allahummə ğəşşini fihi bir-rəhməh. Vərzuqni fihit-taufiqə vəl-isməh. Və təhhir qəlbi min ğəyabihit-tuhməh. Ya rəhimən bi-ibadihil-mu'minin".
Tərcüməsi:
"İlahi, bu gün məni öz sonsuz rəhmətinlə əhatə et! Bu gün mənə qüvvət və ismət nəsib et! Ürəyimi töhmətçilik qaranlığından təmizlə! Ey mömin bəndələrinə rəhmli olan Allah!"

**Ramazan ayının 30-cu gününün duası:**
"Allahumməc'əl siyami fihi biş-şukri vəl-qəbul. Əla ma tərzahu və yərzahur-Rəsul. Muhkəmətən furuuhu bil-usul. Bihəqqi seyyidina Muhəmmədin və alihit-tahirin. Vəl-həmdu lillahi rəbil-aləmin".
Tərcüməsi:
"İlahi, bu gün mənim orucumu şükürlü və qəbul olunmuş qərar ver, öz bəyəndiyin və Peyğəmbərinin bəyəndiyi oruclardan et! Elə oruclardan ki, xırdalıqları da əsas iman prinsiplərinə əsaslansın. Səni and verirəm ağamız Məhəmmədə və pak nəslinə. Aləmlərin rəbbi olan Allaha həmd olsun".

## İftar duası

*"Allahummə ləkə sumtu və əla rizqikə əftərtu və ələykə təvəkkəltu. Bismillahir-Rəhmanir-Rəhim. Ya vasiəl-məğfirəti iğfirli".*
*Tərcüməsi:*
*"İlahi, səndən ötrü oruc tutdum, sənin verdiyin ruzi ilə iftar açdım və sənə təvəkkül etdim. Bağışlayan və mehriban Allahın adı ilə. Ey hüdudsuz bağışlama sahibi, mənim günahlarımı bağışla!"*

# FİTRƏ

Hər müsəlman Ramazan ayının sonunda əsas ehtiyaclarından savayı, ən azı "nisab miqdarı" qədər mala sahibdirsə, yəni zəkat ödəmək iqtidarındadırsa, Fitrə sədəqəsini verməlidir. Malla edilən ibadətlərdən sayılan bu sədəqə növü hicrətin ikinci ilində (Ramazan ayında oruc tutmağın fərz qılındığı vaxtda) müsəlmanlara vacib buyurulmuşdur.

Orucun qəbul olunmasına təsir göstərən və insan fitrətindəki xeyirxahlığı, yardımsevərliyi özündə ehtiva edən fitrə yoxsulların ehtiyaclarını ödənilməsində, onların bayram sevincini daha yüksək əhval-ruhiyyə ilə qarşılamasında əhəmiyyətli rol oynayır.



Şəri baxımdan fitrənin verilmə vaxtının vaciblik hökmü Ramazan bayramının birinci günü, dan yerinin ağarması ilə başlasa da, Ramazan ayının son on günü və ya bayramın sonrakı iki günü ərzində də verilə bilər. Lakin kasıb insanların bayram ehtiyaclarının təmin edilməsi baxımından bayramdan öncə verilməsi daha məqsədəuyğundur. Bayram gününədək fitrə verilməmişsə, bayram günlərində mütləq ödənilməlidir. Bəzi İslam alimləri hesab edirlər ki, vaxtında ödənilməyən fitrənin qəzası vardır, yəni bu ibadət sonrakı vaxtlarda mütləq yerinə yetirilməlidir.

Hədislərdə fitrənin miqdarı buğda, arpa, xurma və üzüm qurusunun 1 sa (təqribən 3 kq) çəkisi qədər müəyyənləşdirilmişdir. Mənbələrdə fitrənin əsasən yuxarıda sadalanan qida məhsullarından verilməsi o dövrün iqtisadi şərtlərindən və qida vərdişindən qaynaqlandığı göstərilmişdir. Ümumiyyətlə, Həzrət Peyğəmbər (s) və səhabə dönəmindəki icraatlara nəzər saldıqda, fitrənin miqdarı bir kasıbın yaşadığı cəmiyyətin orta statistik ailəsinin həyat standartı əsas götürülərək, bir günlük qidalanmağı nəzərdə tutduğunu aydın görərik. Dolayısı ilə müasir dövrdə fitrə bir şəxsin bir günlük normal qida tələbatını təmin edəcək qədər olmalıdır.

Fitrə qida məhsullarından verilə bildiyi kimi, dəyəri nağd pulla da ödənilə bilər. Ancaq bu məsələnin kasıbın xeyrinə həll edilməsi daha yaxşıdır.

Ramazanda müəyyən səbəblərə görə oruc tuta bilməyən şəxslər də fitrə verməlidirlər. Zəkat ödəyəcək mala sahib müsəlman kişi həm özü, həm kiçik yaşda olan uşaqları, həm də xidmətində olan qulluqçularının yerinə fitrə verməlidir. Əgər xanımı və yetkinlik yaşına çatmış övladı "nisab miqdarı" mala sahibdirsə, fitrəni özləri ödəməlidirlər. Bundan başqa, heç kim ata və anasının da fitrəsini ödəmək məsuliyyətini daşımır. Çünki sədəqələrdə həm də ibadət mahiyyəti vardır və hər bir yetkin fərd onu özü icra etməlidir.

Fitrə bir neçə kasıb arasında da paylanıla bilər. Aralarında evlilik və yaxın qohumluq əlaqəsi olan şəxslərin isə bir-birinə fitrə verməsi düzgün sayılmır. Dolayısı ilə fitrə şəri baxımdan zəkat verilməsi caiz olan insanlara verilməlidir.



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*

## Balağayev Seyfəddin Vahid oğlu

Bu gün hər birimiz "mən Vətən oğluyam" - deyib canını ölkəmizin ərazi bütövlüyü naminə qurban verən igid və mərd oğullarla fəxr edirik. Balağayev Seyfəddin Vahid oğlu da onların sırasındadır. O, 1998-ci il martın 6-da indiki Şabran rayonunda anadan olub. Seyfəddin 2014-cü ildə Tofiq Abbasov adına Şabran şəhər 1 nömrəli tam orta məktəbin 1-ci sinfinə gedib. Təhsil aldığı məktəbin ən fəal şagirdlərindən biri olan Seyfəddin yaxşı futbol oynaması ilə seçilirdi. Bu bacarığına görə dəfələrlə Gənclər və İdman Nazirliyinin Şabran rayon İdarəsi tərəfindən təşkil olunan yarışlarda fəxri fərmanlara layiq görülmüşdü. Uşaqlıqdan öz bilik və bacarığı, eləcə də nümunəvi davranışları ilə örnək olan Seyfəddin 2015-cı ildə məktəbi müvəffəqiyyətlə bitirərək Sumqayıt Dövlət Universitetinin "Fizika və Elektroenergetika" fakültəsinə daxil olub. Seyfəddin 2019-cu ildə universiteti bitirib. 2019-cu ilin oktyabrında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Şabran rayon şöbəsi tərəfindən ordu sıralarına çağırılıb. Xidmətinə Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində başlayan Seyfəddin düşmənlə üzbəüz postlarda xidmət edib. O, daim öz üzərində işləyir, hərbi biliklərə yiyələnir, fiziki və döyüş hazırlığını inkişaf etdirirdi.



Hərbi xidmət dövründə rəis və komandir heyətinin rəğbətini qazanan qəhrəmanımız Vətən müharibəsində cəbhənin Füzuli istiqamətindən hərbi əməliyyatlara qatılmışdı. O, bir həftəyə yaxın iştirak etdiyi müharibədə yüksək əzmkarlıq və cəsarət nümayiş etdirmişdir. İşğal altında olan ərazilərimizin azad olunmasında böyük şücaət göstərmişdir. Seyfəddin həm də yaralı yoldaşlarının imdadına yetmiş, şəhidlərimizin təxliyyəsində yaxından iştirak etmişdir. Oktyabrın 7-də iştirak etdiyi növbəti döyüşlərin birində qəhrəmancasına şəhid olan qəhrəmanımız oktyabrın 8-də isə doğulub boya-başa çatdığı Şabran şəhər Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Şəhidimiz subay idi. Onlar ailədə 4 qardaş olublar.

Qəhrəmanlığı və cəsurluğu ilə seçilən əsgər Balağayev Seyfəddin Vahid oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "İgidliyə görə" medalları ilə təltif edilib.

## Baxşəliyev Araz Yavər oğlu

Baxşəliyev Araz Yavər oğlu 1993-cü il sentyabrın 18-də Füzuli rayonunun Horadiz qəsəbəsində dünyaya gəlib. O, 2000-ci ildə Mahir Səfərov adına Horadiz qəsəbə 1 nömrəli tam orta məktəbin 1-ci sinfinə gedib, 2011-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib. Hələ azyaşlı vaxtlarından vətənpərvər ruhda boya-başa çatan Araz gələcəkdə hərbçi olmaq arzusu ilə yaşayıb. 2011-ci ilin oktyabr ayında Füzuli rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılan qəhrəmanımız Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində xidmət edib. Araz 2013-cü ilin aprel ayında hərbi xidmətini uğurla başa vurduqdan sonra müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi xidmətinə davam etmək qərarına gəlib.

Sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirərək Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissədə manqa komandiri vəzifəsində xidmətə davam edib. Arazın ilk döyüş yolu Aprel qələbəsindən başlayıb. O, Aprel döyüşlərində qəhrəmanlığı və qorxmazlığı ilə seçilib. Əvvəlcə manqa komandiri, sonra isə minaatıcı komandiri vəzifəsinə təyin olunan Araz xidməti dövründə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi medalı" ilə təltif olunub.



Vətən müharibəsi başlayan ilk gündən Araz Füzuli istiqamətində düşmən təxribatının qarşısının alınmasında şücaət göstərib. Verilən tapşırıqların öhdəsindən layiqincə gələn Araz düşmənin xeyli sayda canlı qüvvəsinin məhv edilməsində də fəal iştirak edib. Cəbhənin yarılmasında və 30 illik işğalda qalan ərazilərin azad olunmasında onun da payı olub. Araz döyüşlərin ikinci günündə Füzuli rayonunun Seyidəhmədli kəndi istiqamətində gərgin döyüşlər zamanı qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə yüksəlib.

Şəhidimiz Horadiz şəhər qəbiristanında uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb.

Araz ailəli idi.

Cəsurluğu, şücaəti və qorxmazlığı ilə seçilən əsgər Baxşəliyev Araz Yavər oğlu iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

## Bayramlı Tural Ədil oğlu

Əslən Cəbrayıl rayonunun Daşveysəlli kəndindən olan Bayramlı Tural Ədil oğlu 1996-cı il fevral ayının 10-da Beyləqan rayonunun Şərq qəsəbəsində dünyaya göz açıb. O, 2003-cü ildə Qurban Namazəliyev adına Şərq kənd tam orta məktəbin 1-ci sinfinə daxil olub. Sonradan Tural ailəsi ilə bərabər Beyləqan rayonunun Qəhrəmanlı qəsəbəsinə köçüb. O, 2007-ci ildə Qəhrəmanlı qəsəbəsində yerləşən Cəbrayıl rayonunun 22 nömrəli orta məktəbin 4-cü sinfinə bərpa olunub və 2014-cü ildə həmin məktəbi bitirib.



2014-cü ilin oktyabr ayının 4-də SHXÇDX-nın Cəbrayıl rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılan Tural xidmətə Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissənin kəşfiyyat taborunda kəşfiyyatçı kimi başlayıb. Xidmətinin ilk günündən mənfur düşmənlə üz-üzə dayanan Tural döyüş və fiziki hazırlığını artırır, hərbi sirlərə dərindən yiyələnir, keçirilən təlimlərdə adını ilk sıralara yazdırmağı bacarırdı. Həmişə əlində silah xain düşmənlərdən qisas alacağı günün xəyalını quran Turalın arzusu 18 aylıq hərbi xidmətinin sonunda - 2016-cı ilin aprel ayında gerçək olur. Aprel döyüşlərində əsl qorxmaz Vətən övladları kimi o da irəli atılaraq düşmənə öz yerini göstərməyə çalışıb.

Şiştəpə və "Mübariz" postu istiqamətlərində ağır döyüşlərdə olan Turalın yanına artillerya mərmisi düşür və o, torpağın altında qalır, xoşbəxtlikdən yaxınlıqda olan komandiri onu xilas edə bilir. Uğurla iştirak etdiyi döyüşlərin ardından aprelin 25-i tərxis olunan Tural yaxınlarının yanına qayıdır. Erməni vandalları tərəfindən valideynləri yurd-yuvalarından didərgin salınan qəhrəmanımız körpəliyindən həyatın ən pis üzləri ilə tanış olmuş, özünün görmədiyi, lakin böyüklərindən eşitdiyi ata-baba diyarının həsrəti ilə böyümüşdü. Uşaq yaşlarından tez-tez atasına ermənilərin onları kəndlərindən necə qovması haqqında suallar verir, böyüyəndə hərbçi olub qovulmaq necə olur, onlara göstərəcəyini deyirmiş. Düşmənə olan nifrəti, Vətənə olan sevgisi və hərb sənətinə olan marağı Turalın yolunu yenidən ordu sıralarından salır.

2016-cı ildə sənədlərini Daxili İşlər Nazirliyinin "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirən Tural Daxili Qoşunların Xüsusi Təyinatlı Dəstəsində ("Yarasa") müddətdən artıq hərbi qulluqçu kimi fəaliyyətə başlayıb. Peşəsinin vurğunu olan Tural yaxınlarına və doğmalarına vaxt ayırmadan öz üzərində işləyir, təlimlərə qatılır, bilik və bacarıqlarını gündən-günə daha da artırırdı. Hər zaman cənab Ali Baş Komandanın "İrəli!" əmrini gözlədiyini dilə gətirən Turalın bu arzusu 2020-ci il sentyabr ayının 27-si həyata keçir. Elə həmin gün Suqovuşan istiqamətindən döyüşlərə qatılan Tural bir həftə sonra Füzuli rayonuna göndərilir.

O, Füzuli, Cəbrayıl və Zəngilan şəhərlərinin, eləcə də Hadrut qəsəbəsinin işğaldan azad olunmasında qəhrəmanlıqla iştirak edib, şəxsi döyüş şücaəti göstərib. Müharibə dövründə yaxınları ilə çox az əlaqə saxlayan Tural sanki şəhid olacağını hiss edirmiş kimi oktyabrın 29-da ailəsinə zəng edərək onlardan halallıq istəyib. Qəhrəmanımızın son döyüşü noyabrın 4-dən 5-nə keçən gecə Daşaltı istiqamətində olub. O, düşmənlə üz-üzə vuruşub komandiri ilə birlikdə öndə hərəkət edib. Snayperçi olsa da, yaxın məsafədə döyüşdükləri üçün avtomatı ilə düşmənə aman verməyərək irəliləyən Tural düşmən gülləsinə tuş gələrək ağır yaralanır, buna baxmayaraq, son nəfəsinə qədər döyüşə davam edir və qəhrəmancasına şəhidlik zirvəsinə ucalır. Şəhidimizin nəşi ailəsinə noyabrın 9-da axşam saatlarında təhvil verilib. O, noyabrın 10-da Beyləqan rayonunun Şəhidlər Xiyabanında dəfn edilib.

Tural subay idi. Ailədə iki qardaş idilər.

Döyüş əməliyyatları zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək adını şanlı vətən tariximizə yazan əsgər Bayramlı Tural Ədil oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

**Hazırladı: Ramil Hikmət**

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2024

## MƏRRAKEŞ

Mərakeşin dörd imperiya paytaxtlarından biri olmuş Mərrakeş şəhəri ölkənin cənubunda, Atlas dağlarının ətəklərinin qərbində yerləşir. Şəhər 1070-ci ildə Əlmürabilər sülaləsinin hökmdarı Yusif İbn Təşvin tərəfindən paytaxt kimi salınmışdır. Şəhərin qala divarları 1122-1123-cü illərdə Əlmürabilər sülaləsindən olan Əli ibn Yusif tərəfindən inşa olunmuşdur. Qırmızı divarlarla əhatə olunduğu və binalar qırmızı qumdaşı ilə tikildiyi üçün şəhər "Qırmızı Şəhər" və ya "Oxra Şəhər" adlandırılmışdır. Əlmürabilər hakimiyyəti dövründə aparılan tikinti işləri – inşa edilən məscidlər, saraylar, evlər şəhərin planını formalaşdırmışdır. Daha sonralar şəhərə hakim olan sülalələrin dövründə inşa edilən məscidlər, mədrəsələr, kral sarayları, bağlar, muzeylər və digər ictimai yerlər ona heyrətamizlik bəxş etmişdir. Bu gün tarixi abidələrlə zəngin olan Mərrakeş şəhərini Məğrib memarlığının beşiyi hesab etmək mümkündür.

Əlmüvəhhidilərə müqavimət göstərə bilməyən Əlmürabilər dövləti XII əsrin ortalarında zəifləmiş və 1146-cı ildə süqut etmişdir. 1147-ci ildən imperiyaya hökmranlıq edən Əlmüvəhhidilər xilafəti Mərrakeşi paytaxt kimi saxlamışdır. Lakin 1269-cu ildə ölkəni ələ keçirən Marinilər sülaləsi paytaxtı Fəs şəhərinə köçürmüşlər. Nəticədə şəhərin sürətli inkişafında bir qədər durğunluq yaranmışdır. Mərrakeş 1525-ci ildə Səədi Sultanlığının nəzarətinə keçmiş və 1659-cu ilə qədər imperiyanın paytaxtı olmuşdur. Bu dövrdə şəhər öz əzəmətini, eyni zamanda regionun əsas iqtisadi və mədəni mərkəz rolunu bərpa etmişdir. Sultan Abdullah əl-Qalib və Əhməd əl-Mənsur şəhəri dəbdəbəli saraylarla bəzəmiş və bir çox dağılmış abidələri yenidən bərpa etmişdir. 1669-cu ildə öncə Fəsi daha sonra Mərrakeşi istila edən Ələvilər sülaləsi bir müddət sonra paytaxtı Meknesə köçürmüşdür. Mərrakeş paytaxt statusunu itirsə də bir neçə əsr iqtisadi və siyasi mərkəz kimi qalmışdır. Hazırda Mərakeş Krallığının əsas şəhərlərindən biri olan şəhər qədim və yeni olmaqla iki hissəyə bölünür və tarixi abidələrin zənginliyi ilə fərqlənir. Mərrakeşi dünyaca məşhur edən Məğrib memarlıq nümunələri olan məscidlərdir.

**İbn Yusif məscidi.** Tarixi qaynaqlara görə, Mərrakeşdə ilk məscid 1071-ci ildə Yusif ibn Taşfin tərəfindən inşa edilsə də, müxtəlif səbəblərdən dövrümüzədək gəlib çatmamışdır. Mərrakeşin ən qədim məscidi Yusif ibn Taşfindən sonra hakimiyyətə gələn Əli ibn Yusifin inşa etdirdiyi və onun adını daşıyan məscid hesab olunur. Məscid şəhərin qədim hissəsində yerləşir və həyətində mərmərlə döşənmiş hovuzu olan böyük fəvvarəsinə görə bəzən "əs-Siqayə" adlanır. Bu memarlıq abidəsi 1120-1132-ci illərdə inşa olunmuşdur. Tikildiyi dövrdə şəhərin mərkəzi məscidi hesab edilsə də, Əlmüvəhhidilərin hakimiyyətə gəlişindən sonra xəlifə Əbd əl-Muminin əmri ilə qibləsinin səhv olduğu iddia edilərək zamanla tərk edilmişdir. Əlmüvəhhidilər bunun əvəzinə şəhərin cənub-qərb hissəsində, böyük bir məscid - Kutubiyyə və Kasba məscidlərini inşa etdirmişlər. İbn Yusif məscidi öz tarixi görkəminə Səədilərin dövründə qaytarılmışdır. Belə ki, həmin dövrdə şəhərdə başlanan əhəmiyyətli yenidənqurma və bərpa işləri zamanı bir çox abidələr kimi İbn Yusif məscidi də təmir olunmuşdur. Bundan əlavə Abdullah əl-Qalib 1563-64-cü illərdə məscidin şərqində İbn Yusif mədrəsəsini tikdirmişdir. XVII və XVIII əsrlərdə məscid baxımsız qalmış, XIX əsrin əvvəllərində Ələvi sultanı Süleyman tərəfindən tamamilə yenidən qurulmuşdur. Məscid hər tərəfi 64 metr olan kvadrat formadadır. O , şimaldan, cənubdan və qərbdən tağlarla əhatə olunmuş, 40x30 m ölçüdə, mərkəzi fəvvarə olan geniş daxili həyətə malikdir. Məscidin diqqətçəkən özəlliyi rəngarəng boyalı həndəsi və arabesk motivlərlə işlənmiş taxta tavanlarıdır. Məscid bu gün Mərrakeşin ən əhəmiyyətli dini abidələrindən biri kimi öz fəaliyyətini davam etdirir. Bundan başqa, hazırda məscid kimi fəaliyyət göstərməyən Timmal məscidi də Əlmürabilər dövründə inşa edilən tarixi abidələr siyahısındadır.

**Kutubiyyə məscidi.** Kordova məscidinin tikintisi Priney yarımadasında və Şimali Afrikada İslam memarlığının genişlənməsinə səbəb oldu. Nəticədə qısa zamanda əzəmətli memarlıq abidələri bu bölgədə inşa olunmağa başlandı. Belə memarlıq incilərindən biri də Kutubiyyə məscididir. Şəhərin ən böyük məscidi hesab edilən Kutubiyyənin əsası 1147-ci ildə Əlmüvəhhidilər Xilafətinin hökmdarı Əbd əl-Mumin tərəfindən qoyulmuşdur. Marrakeşin cənub-qərbində Mədinə məhəlləsində yerləşən məscid geniş bağlarla əhatə olunmuşdur. Məscid 1158-ci ildə tamamilə sökülərək yenidən tikilmişdir. Məscidin eni təxminən 90 m-dir, qərb divarının uzunluğu 57 m, şərq divarının uzunluğu isə 66 m-dir. Məscidin dördü qərb, dördü şərq tərəfdən olmaqla səkkiz girişi var. Şərq tərəfi kitab dükanlarının yerləşdiyi küçəyə baxır, ona görə də məscidə "Kitabçılar məscidi" adı verilmişdir. Daxili ibadət zalında 100-dən çox sütun mövcuddur. Sütunlar və tağlar ağ suvaqla örtülmüş kərpiclə hörülmüşdür. Məscidin minarəsinin hündürlüyü 77 m-dir və qülləsi müxtəlif həndəsi tağ motivləri ilə bəzədilmiş, üstü şillə və metal kürələrlə örtülmüşdür. Bu minarə onunla eyni dövrdə inşa edilən və ya qısa müddət sonra tikilmiş Sevilya Giraldası və Rabatın Həsən Qülləsi kimi digər abidələrə ilham vermişdir. Həmçinin minarə Marrakeşin mühüm nişangahı və simvolu hesab olunur.



Kutubiyyə məscidi

**Kasba məscidi.** Keçmiş kral saray kompleksinin yanında yerləşən məscid 1185-1190-cı illərdə hökmdar Yaqub əl-Mənsur tərəfindən inşa olunmuşdur. Məscid Mərakeşin ən mühüm tarixi abidələrindən biridir. Xarici görünüşünün heyrətamizliyi ilə seçilən məscidin hündür divarları yuxarıya doğru bir sıra korbellərin üstündəki merlonlarla taclanır. Məscidin minarəsi Məğrib memarlığının digər minarələri kimi, kvadrat bazaya malikdir və iki hissəyə bölünür: əsas gövdə və daha kiçik lampa hissəsi. Məscidin beş hissədən ibarət geniş həyətinin cənub tərəfində perpendikulyar şəkildə uzanan namaz zalı yerləşir. Zalın cənub divarı qibləni göstərir. Ümumiyyətlə, klassik Məğrib və Əndəlüs məscidlərindən fərqlənsə də orta əsr məscidləri ilə bir çox oxşarlıqları mövcuddur.

**İbn Salah məscidi.** Marrakeşdə Marinilər sülaləsi dövründən qalan yeganə böyük abidə olan bu məscid gözəl minarəsi ilə diqqət çəkir. Məscidin təməli və tikintisinin təfərrüatları tam aydın deyil. Abidəyə məxsus kitabədə minarənin tikintisinə 1321-ci ilin avqustunda başlanıldığı bildirilir. Əsrlər boyu aparılan çoxsaylı təmirlərə baxmayaraq, məscidin görünüşü dəyişməmişdir. Minarəsi qərb tərəfində yerləşən məscidin üç girişi var. Məscidin yanında 1669-1671-ci illərdə Mərakeş Sultanı əl-Rəşid ibn Şərif tərəfindən mədrəsə tikilmişdir.

**Bab Dukkala məscidi.** Şəhərin qərb divarlarında yerləşən XVI əsrə aid Bab Dukala məscidi, həmçinin əl-Hurra məscidi kimi də tanınır. Məscid Səədilər dövründə Məhəmməd əl-Şeyxin həyat yoldaşı Lalə Məsud binti Əhmədin istəyi ilə inşa edilmişdir. Məscidin tikintisinə 1557-58-ci illərdə başlanmış, təxminən 1570-71-ci ildə başa çatmışdır. O, həmçinin Kutubiyyə məscidi kimi əvvəlki Əlmüvəhhidilər dövründə inşa edilən məscidlərin bir çox memarlıq xüsusiyyətlərini özündə birləşdirir. Bab Dukalanın memarlığında daha incə bəzəklərə rast gəlinir. Məscid Səədi dövrünə aid standart inşaat planı əsasında inşa edilmişdir. Bu plana əsasən, əksər məscidlər geniş ibadət zalından, mərkəzində fəvvarə tikilən kvadrat daxili həyətdən ibarət olur. Məscidin minarəsi şimal-şərq küncündə yerləşir. Onun fasadları şəbəkələrlə və tağlarla bəzədilmişdir.

**Məvasin məscidi.** Məscid 1562-1572-ci illərdə sultan Abdullah əl-Qalib tərəfindən inşa edilmişdir. Məvasin məscidinin memarlıq üslubu tikintisi eyni dövrə təsadüf edən Bab Dukkala məscidi ilə oxşardır. Bu məscidlər Səədilərin şəhərdə apardığı yenidən qurma işlərinin fonunda inşa olunmuşdur. Məscid kompleksinə mədrəsə, kitabxana, ibtidai məktəb, ictimai hamamlar daxildir. Ümumiyyətlə, məscid Əlmüvəhhidilər dövründə inşa edilən digər məscidlərin formasında olub, "T-plan" modelindədir. Bununla belə, Səədilər dövründə məscidlərin həyətləri və ibadət zalları əvvəlki dövrlərə nisbətən daha genişdir. Məscidin həyəti kvadrat formasındadır, mərkəzində isə ənənəvi olaraq fəvvarə mövcuddur və üç tərəfdən tağlarla əhatə olunmuşdur. Yeddi dəhlizdən ibarət olan ibadət zalı isə məscidin cənub hissəsində yerləşir. Bundan başqa, Səədilər dövründə əsası qoyulan əl-Vusta, Məhəmməd ibn Süleyman əl-Cazuli, Seyyidi Bilabbas, Seyyidi Əbdüləziz kimi məscidlər şəhərin əsas ibadət yerlərindəndir.

Mərrakeş 2024-cü ildə İslam mədəniyyəti paytaxtı seçilmişdir.

**Hazırladı: Tural Vəlizadə**

## BRİTANİYADA MÜSƏLMAN İCMALARININ MÜDAFİƏSİNƏ 150 MİLYON DOLLAR AYRILACAQ

Britaniya hökuməti ölkədə artan islamafobiya fonunda müsəlman icmalarının müdafiəsi üçün 117 milyon funt sterlinq (təxminən 150 milyon dollar) ayıracaq.

Bunu Böyük Britaniyanın daxili işlər naziri Ceyms Kleverli deyib. "Biz Yaxın Şərqdəki hadisələrin Böyük Britaniya müsəlmanlarına qarşı yönəlməsinə yol verməyəcəyik", - deyə nazir bildirib.

Ceyms Kleverlinin sözlərinə görə, Böyük Britaniya hökuməti bu məqsədlə qarşıdan gələn 4 il ərzində 117 milyon funt-sterlinq xərcləməyi planlaşdırır. Yeni maliyyə hesabına məscidlərin, müsəlmanlara aid dini məktəblərin və digər İslam mərkəzlərinin mühafizəsi təşkil olunacaq. Həmin vəsaitin böyük hissəsi təhlükəsizlik tədbirlərinə xərclənəcək.



# BÖLGƏLƏRDƏ "YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ" ÇƏRÇİVƏSİNDƏ AĞACƏKMƏ KAMPANİYALARI TƏŞKİL OLUNUB



Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Prezident İlham Əliyevin Sərəncamı bölgələrdə uğurla icra edilməkdədir. Bununla bağlı mart ayı ərzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba, Tovuz və Şəki bölgələri üzrə şöbələrinin təşəbbüsü və müvafiq olaraq Şabran, Siyəzən, Ağstafa və Oğuz rayonlarında fəaliyyət göstərən dini icmaların, din xadimlərinin təşkilatçılığı ilə ağacəkmə kampaniyaları təşkil olunub.



## ARXEOLOQLAR II RAMZESİN NƏHƏNG HEYKƏLİNİ AŞKAR EDİBLƏR



"Heritage daily" xəbər verir ki, Misir-Amerika birgə arxeoloji missiyası Misirin Minya əyalətində qazıntılar zamanı firon II Ramzesin böyük heykəlinin yuxarı hissəsini aşkarlayıb.

Böyük Ramzes kimi tanınan II Ramzes Yeni Krallıq dövründə 19-cu sülalənin üçüncü fironu idi. Onun hakimiyyət illəri (e.ə.1279-1213) Misir tarixində hərbi kampaniyalar və böyük tikinti layihələri ilə yadda qalan ən məşhur dövr hesab olunur.

Heykəl Aşağı və Yuxarı Misir sərhədi yaxınlığında yerləşən qədim Hermopolis şəhərində qazıntılar zamanı tapılıb. Köhnə Krallıq dövründə Hemenu kimi tanınan şəhər yalnız Teben ilə ayaqlaşa bilməyərək vilayətin ikinci paytaxtı olmuşdu. Qədim yunanlar buranı "Hermesin şəhəri" mənasını verən Hermopolis adlandırırdılar, çünki yunanlar Hermopolisdə sitayiş edilən Tot kultunu Hermes ilə əlaqələndirirdilər. Sonralar şəhər romalılar tərəfindən daha da inkişaf etdirildi və III əsrdən etibarən böyük dini mərkəzə çevrildi.

Arxeologiya Ali Şurasının baş katibi, doktor Mustafa Vəzirinin sözlərinə görə, əhəngdaşından hazırlanmış heykəl 1930-cu illərdə alman arxeoloqu Q.Röder tərəfindən aşkar edilmiş heykəlin çatışmayan yuxarı hissəsidir.

Hündürlüyü 3,8 metr olan heykəl (1930-cu illərdə tapılmış hissə ilə birlikdə 7 metr) üzərində kral kobrası olan qoşa tac taxmış II Ramzesin təsvirini əks etdirir. Heykəlin yuxarı arxa hissəsində fironun məşhur titullarını təsvir edən bir sıra heroqlif yazılar var.

Doktor Yufona Tranka isə verdiyi açıqlamada bildirib ki, missiya, həmçinin zamanda Talmi məbədinin xarabalıqları üzərində tikilmiş, VI əsrdə Müqəddəs Məryəmə həsr olunmuş Aşmonin Bazilikasının şimal tərəfində yerləşən qranit sütunları da bərpa edib.

## BODLEİAN KİTABXANASI BAXIN KANTATASININ AVTOQRAFINI ƏLDƏ EDİB



Oksford Universitetinin Bodleian Kitabxanası nadir əlyazma - barokko dövrünə məxsus böyük alman bəstəkarı İohan Sebastian Baxın İsanın Göyə Ucalması bayramı münasibətilə yazdığı kantatasının avtoqrafını əldə edibdir. Bu barədə "The History" bloqu yazıb.

Bu, Bax tərəfindən yazılmış, Böyük Britaniyada saxlanılan dörd əlyazmadan biridir. Sözügedən nadir sənəd 3,65 milyon funt-sterlinq miras vergisi əvəzinə hökumət tərəfindən hədiyyə olaraq qəbul edilib.

16 səhifəlik əlyazma "Kon Əlyazması" kimi də tanınır. Belə ki, o, 1940-cı ildə nasist Almaniyasından İngiltərəyə qaçan kolleksiyaçı ser Ralf Konun adını daşıyır.

İ.S.Baxın İsanın Göyə Ucalması bayramı münasibətilə bəstələdiyi kantatanın əlyazması olan bu sənəd 1725-ci il mayın 10-da yaradılmışdır. Bu, kantatanın mühafizə olunmuş yeganə işçi əlyazmasıdır və tam partituradır. Notlar 1878-ci ilə qədər çap olunmayıb.

Kon əlyazmanı 2000-ci illərin əvvəllərində Bukingem sarayındakı sərgi üçün borc vermişdi. O, 2016-cı ildə vəfat etdikdə kolleksiyası dul arvadı Zahavaya miras qaldı. Zahava dünyasını dəyişdikdən sonra isə onun varisləri bu əlyazma ilə vergi borcunu ödəyiblər.

20 dəqiqədən az davam edən qısa bayram kantatası üçün bu musiqi tamamilə yeni idi, bu, tez-tez digər əsərlərindən hissələri yenidən işləyib uyğunlaşdıran Bax üçün olduqca qeyri-adi idi. Onun bir çox kantatalarının musiqisi günümüzə qədər gəlib çıxmayıb.

Əlyazma bəstəkarın öz əli ilə qəhvəyi və qara mürəkkəblə yazdığı dörd böyük formatlı qoşa vərəqdən (16 səhifə) ibarətdir. Başlıq notların birinci səhifəsinin üstündə yazılıb: "Festo Ascensionis Xsti, Auff Christi Himmelfahrt allein", ondan əvvəl Baxın şəxsi epiqrafı "JJ", yəni "Jesu Juva" ("İsa, kömək et") yazılıb.

Bu, Baxın bəstəkar partiturasıdır, işçi sənəddir; bəstəkar ona çoxlu düzəlişlər və əlavələr edib, xüsusən də giriş nəqəratında. Əlyazmada Baxın böyük oğlu Vilhelm Fridemana məxsus bəzi qeydlər və əsərin 1878-ci ildə ilk nəşrinə hazırlanarkən çapçılar tərəfindən edilən bəzi zəif qələm izləri də var.

Konun əlyazması 2025-ci il yanvarın 5-dək davam edəcək "Yaz, Kəs, Yenidən Yaz" sərgisi çərçivəsində Ueston Kitabxanasının xəzinəsində sərgilənib.

Bütöv əlyazma rəqəmsallaşdırılıb və "Digital Bodleian" kitabxanasının onlayn kolleksiyasına yüklənib.

Əsərin 1725-ci ildəki ilk ifasının 300 illik yubileyi münasibətilə ifa olunması planlaşdırılır.

## İRLANDİYALILARIN ƏKSƏRİYYƏTİ REFERENDUMDA AİLƏ DƏYƏRLƏRİNƏ SƏS VERİBLƏR

İrlandiyalıların böyük əksəriyyəti - 68% referendumda ailə dəyərlərinə səs verərək, pozğunçuluğun lehinə olan "konstitusiyaya ailə düzəlişini" rədd ediblər. Bu barədə "catholicnewsagency" məlumat verib.

İrlandiyada seçicilər "ailə anlayışının genişləndirilməsi və qadın-ev işçilərinin dövlət üçün sosial dəyəri ilə bağlı müddəaların tənzimlənməsi" məqsədi ilə ölkə konstitusiyasına təklif edilən dəyişiklikləri rədd ediblər. İrlandiyanın Baş naziri Leo Varadkar açıqlamasında bildirib ki, hökumət seçicilərin 8 mart tarixində keçirilən iki referendumda konstitusiyanın "cinsiyyətçi ailə müddəalarının" əsaslı şəkildə yenidən qurulmasını dəstəkləyəcəyini gözləyirdi. "Aydındır ki, biz səhv etmişik", – deyə Baş nazir etiraf edib.

Seçicilərin təxminən 68%-i "Ailə düzəlişi"ni (Family Amendment) rədd edib. İslahatçılar bu düzəlişi 1937-ci ildə qəbul edilmiş İrlandiya Konstitusiyasından nikah və ailənin cəmiyyət üçün böyük əhəmiyyəti haqqında müddəanı çıxarmaq və onu ailənin "nikah və ya digər davamlı münasibətlərə əsaslanan birlik" kimi təhrif edilmiş yeni tərifi ilə əvəzləmək üçün təklif etmişdilər.

Seçicilər başqa bir variantı - "Qayğı düzəlişi"ni də (Care Amendment) rədd ediblər, dəyişiklikdə onlara aşağıdakı müddəaların konstitusiyadan çıxarılması təklif olunurdu: "Dövlət tanıyır ki, qadın öz ev əməyi və qayğısı ilə dövlətə kömək edir, bununla da ümumi rifaha böyük töhfə verir; ona görə də dövlət çalışır ki, analar iqtisadi zərurət üzündən ev işlərinə laqeyd yanaşaraq işləmək məcburiyyətində qalmasınlar". Həmin müddəanın aşağıdakı abzasla əvəz edilməsi təklif olunub: "Dövlət ailə üzvlərinin bir-birinə göstərdiyi qayğını dəstəkləməyə çalışır, bunsuz ümumi rifah əldə etmək mümkün deyil". Seçicilərin təxminən 74%-i əvvəlki müddəaların aradan qaldırılması ideyasına yox deyib.

Maraqlıdır ki, İrlandiyanın aparıcı siyasi partiyaları və bir çox nüfuzlu təşkilatlar, o cümlədən güclü maliyyə institutları konstitusiyadan arzuolunmaz müddəaların çıxarılmasını qətiyyətlə dəstəkləyib, bir çox mühafizəkar təşkilatlar, hərəkatlar və ölkənin katolik yepiskopları isə hər iki təşəbbüsün əleyhinə səs verilməsinə çağırıblar. "İrlandiyalı seçicilərin bu qərarı sosial radikalizm qarşısında cəmiyyətin fundamental dəyərlərinin müdafiəsinin vacibliyi haqqında güclü mesaj ötürür", - İrlandiyanın mühafizəkar "Ailə həmrəyliyi" (Family Solidarity) hüquq müdafiə qrupunun bəyanatında deyilir. "Bizim bu qələbəmiz təkcə referendumla bağlı konkret təklifin rədd edilməsi deyil; bu, İrlandiya xalqının bəyanatıdır ki, cəmiyyətin əsas özəyi kimi ailəni biz hər cür qorumalı və əziz tutmalıyıq. Xalqın bu qərarı əsrlər boyu xalqımızın sütunu kimi xidmət göstərmiş ictimai dəyərlərin əsaslarını qoruyub saxlamaq istəyini sübut edir".

Dəyişiklikləri tənqid edənlər narazılıqla qeyd edirlər ki, Beynəlxalq Qadınlar Günündə səsə qoyulan, qəbul olunmamış qanun layihəsi açı istehza ilə Konstitusiyadan "qadın" və "ana" anlayışlarının çıxarılmasını təklif edir və bunun əvəzinə anlaşılmaz qalan "davamlı münasibətlər" və bir növ cinsiyyətsizliyin qarşılığı olaraq "ailə üzvlərinin qayğısı" kimi anlayışları təqdim edir.

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, insanların mənəvi baxımdan daha sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini 2024-cü ilin mart ayı ərzində də davam etdirmişdir.*

**Cari ay ərzində bu qəbildən olan tədbirlər:**

**1 mart** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şəki rayonunun Şin kənd tam orta məktəbində "Dini radikalizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonunda "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Əhalinin ekoloji təhlükəsizliyinin təmin edilməsində gənclərin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə Dövlət Regional Kollecində "Məişət zorakılığının qarşısının alınması, həmçinin onunla mübarizə" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Rayon Polis Şöbəsinin (RPŞ) təşkilatçılığı ilə Ağcabədi şəhər 9 saylı tam orta məktəbində "Narkomaniya və zərərli vədişlərə qarşı mübarizə" mövzusunda;



**4 mart** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Şirvan Şəhər İcra Hakimiyyətinin (ŞİH) təşkilatçılığı ilə "Yeniyetmə və gəncləri dini radikalizmdən qoruyaq" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Füzuli rayonu "Mahmudlu-2" kənd məscidində "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Rayon İcra Hakimiyyətinin (RİH) təşkilatçılığı ilə Siyəzəndə "Gender bərabərliyi və qadınların mütərəqqi cəmiyyətdə iştirakı" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Yardımlı rayon V.A.Bəndəliyev adına Urakəran kənd tam orta məktəbində "Qızları təhsildən yayındırmağın hüquqi və mənəvi məsuliyyətləri" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və RPŞ-nin təşkilatçılığı ilə Samux rayon Qarayeri qəsəbə 2 saylı tam orta məktəbində "Məişət zorakılığının qarşısının alınması" mövzusunda;

**5 mart** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Muxax kənd 1 saylı tam orta məktəbində "Yeniyetmə və gəncləri dini radikalizmdən qoruyaq!" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və RPŞ-nin təşkilatçılığı ilə Ağcabədi şəhər Məmməd Aranlı adına 11 saylı tam orta məktəbində "Narkomaniya və zərərli vədişlərə qarşı mübarizə" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər "N" saylı hərbi hissədə "İslamın şəhidlik və intihara münasibəti" mövzusunda;

**6 mart** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qusar rayonu Avaran kənd tam orta məktəbində "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Binəqədi RİH-in təşkilatçılığı ilə 179 saylı tam orta məktəbdə "Dini radikalizm, ekstremizm və fanatizmin mahiyyəti" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər Musiqi Kollecində "Qızların təhsildən yayındırılmasının hüquqi və mənəvi məsuliyyəti" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, rayon gənclər və idman sektoru və Balakən rayonu "Gənclər evi" sosial xidmət müəssisəsinin təşkilatçılığı ilə Talalar kənd 2 saylı tam orta məktəbində "Radikal dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Yardımlı rayonu Vərgədüz kənd A.Bağırov adına tam orta məktəbində "Gəncləri və yeniyetmələri radikalizmdən qoruyaq" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lerik: şəhər "Cümə" məscidində "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin yeri" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Abşeron rayonunun Pirəkəşkül qəsəbəsində yerləşən N saylı hərbi hissədə "Zərərli vərdişlər və özünə xəsarət yetirmənin sosial-psixoloji aspektləri" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhərində yerləşən N saylı hərbi hissədə "Vətənpərvərlik ruhunun yüksəldilməsində mənəvi və dini dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qusar şəhərində yerləşən hərbi hissədə "Vətənpərvərlik ruhunun yüksəldilməsində mənəvi dəyərlərin rolu" mövzusunda;

**7 mart** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Cəlilabad rayonunun Sərhədabad kənd tam orta məktəbində "Dini radikalizmə qarşı mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Kürdəmir RİH-in təşkilatçılığı ilə rayonun Mərkəzləşdirilmiş Kitabxana Sistemində "Tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmləndirilməsindəki rolu" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonunun Bağban kənd tam orta məktəbində "Milli-mənəvi dəyərlərimizə bağlı gənclik" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayonunun Almalı kənd tam orta məktəbində "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə rayonun Göyşaban və Ürgə kənd tam orta məktəblərində "Yeniyetmə və gəncləri radikalizmdən qoruyaq!" və "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzularında; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və RPŞ-nin təşkilatçılığı ilə Samux rayonunun Qiyaslı kənd məktəbində "Milli və mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Abşeron rayonu Güzdək qəsəbəsində yerləşən N saylı hərbi hissədə "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə təhdid kimi" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Bərdə rayonunda yerləşən N saylı hərbi hissədə "İntihar və özünəqəsd hadisələrinin qarşısının alınması" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdam rayonu ərazisində yerləşən "N" saylı hərbi hissədə "Gənclərin dini radikalizm və ekstremizm təhlükəsindən qorunması" mövzusunda;

**10 mart** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Abşeron rayonunun Məmmədli qəsəbəsi Şahsevən məscidində "Narkomanlığa qarşı mübarizədə dini və milli-mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhəri V.Əliyev adına 12 nömrəli tam orta məktəbdə "Dini radikalizmə qarşı mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qazax rayonunda yerləşən N saylı hərbi hissədə "Dini radikalizm, zərərli vərdişlər və intiharın sosial-psixoloji aspektləri" mövzusunda, Ağstafa rayonunda yerləşən N saylı hərbi hissələrdə isə "İslamın şəhidlik və intihara münasibəti", "Vətənpərvərlik ruhunun yüksəldilməsində mənəvi və dini dəyərlərin rolu" mövzularında;

**11 mart** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə "Şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin, hərbi intizamının möhkəmləndirilməsində, hərbi qulluqçular arasında vətənpərvərlik ruhunun yüksəldilməsində dini dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayonunda yerləşən N saylı hərbi hissədə "İslamın şəhidlik və intihara münasibəti" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə hərbi hissədə "Gənclərin dini radikalizm və ekstremizm təhlükəsindən qorunması" mövzusunda;

**12 mart** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux rayonunun Sarıqamış kənd tam orta məktəbində "Dini radikalizm cəmiyyət üçün böyük təhlükədir" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH, rayon gənclər və idman sektorunun təşkilatçılığı ilə rayonun Yuxarı Çardaxlar kənd tam orta məktəbində "Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şəmkir rayonunda yerləşən N saylı hərbi hissələrdə "Dini fanatizm, radikalizm və ekstremizmin fərdi və ictimai fəlakətləri", "Müqəddəs mənbələrdə Vətənin müdafiəsi məsələləri" mövzularında;

**13 mart** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sumqayıt şəhərində yerləşən N saylı hərbi hissədə "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsirləri" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Yevlax rayonunda "Tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmləndirilməsindəki rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Balakən RİH-in təşkilatçılığı ilə rayonun Eyvaz Əliqayev adına Qullar kənd 2 saylı tam orta məktəbində "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərin yeri" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağsu rayonunun Ərəbmehdibəy kənd tam orta məktəbində "Erkən nikah və onun fəsadları" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Mingəçevir şəhər 13 saylı tam orta məktəbdə "Qızları təhsildən yayındırmağın hüquqi və mənəvi məsuliyyəti" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Naftalan şəhər Peşə məktəbində "Dini radikalizmlə mübarizədə milli-mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Göygöl RİH-in birgə təşkilatçılığı ilə rayonun Nadil kənd tam orta məktəbində "Dini radikalizmə qarşı mübarizədə milli və mənəvi dəyərlərimizin rolu" mövzusunda;



**14 mart** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar şəhər 3 saylı tam orta məktəbində "Gəncliyimiz və gələcəyimiz üçün ciddi təhlükə olan zərərli vərdişlər" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdaş Dövlət Humanitar Kollecində "2024-cü il Yaşıl dünya naminə həmrəylik ili" mövzusuna həsr olunan; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qəbələ rayonunun İlham Abdulkərimov adına Nohurqışlaq kənd tam orta məktəbində "Gənclərimizi zərərli ideoloji təsirlərdən necə qoruyaq?" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayonunun Qaşqaçay kənd tam orta məktəbində "Milli dövlətçiliyin möhkəmlənməsi: Azərbaycançılıq ideologiyası və mənəvi dəyərlər" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Kürdəmir Peşə Liseyində "Dini radikalizmi meydana gətirən səbəblər" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lerik RİH, Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin Lerik rayonu üzrə sektoru və rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Lerik rayonunda "Yeniyetmə və gəncləri dini radikalizmdən qoruyaq!" mövzusunda;

davamı səh. 14

əvvəli səh. 13

# QISA-QISA

**15 mart** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Tərtər RİH-in təşkilatçılığı ilə rayonun M.Qarayev adına Qaraağacı kənd tam orta məktəbində "Uşaqların zərərli informasiyadan qorunması", "Narkomaniyaya yox deyək!", "Dini radikalizm və ekstremizmə qarşı mübarizədə təhsilin rolu" mövzularında; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH, İnsan Hüquqları üzrə Müvəkkilin Şimal regional mərkəzi, Quba-Xaçmaz Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Quba rayonunda "Milli birliyin möhkəmləndirilməsində mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Şabran rayonu üzrə Təhsil Sektorunun təşkilatçılığı ilə Şabran rayonu Vələsli kənd 1 saylı orta məktəbində "Tolerantlıq və multikultural dəyərlərin əhəmiyyəti" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi, Bərdə RİH və Bərdə rayonunun Uğurbəyli kənd məscidi dini icmasının təşkilatçılığı ilə Uğurbəyli kənd məscidində "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasında dini icmaların rolu" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və İmişli Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Milli dövlətçiliyimizin möhkəmlənməsində Ulu öndər Heydər Əliyevin xidmətləri" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Göyçay RİH və RPŞ-nin birgə təşkilatçılığı ilə Göyçay şəhər 6 saylı tam orta məktəbində "Reproduktiv sağlamlıq" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və RPŞ-nin təşkilatçılığı ilə Samux rayonunun Seyidlər kənd tam orta məktəbində "Dini radikalizmin törətdiyi bəlalar" mövzusunda; DQİDK və Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Ağcabədi rayonu ərazisində yerləşən "N" saylı hərbi hissələrdə "Şəxsi heyətin vətənpərvərlik ruhunun və mənəvi-psixoloji vəziyyətinin yüksəldilməsi, intihar və özünəqəsd hallarının qarşısının alınması", "Radikalizm və ekstremizm təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları", "Şəxsi heyətin vətənpərvərlik tərbiyəsində milli-mənəvi dəyərlərimizin rolu" mövzularında; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və gənclər və idman sektorunun təşkilatçılığı ilə Zərdab rayonunun Mədəniyyət Mərkəzində "Milli-mənəvi dəyərlərin gənclər arasında təbliği" mövzusunda;

**18 mart** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi, Şəhər Polis İdarəsi, Abşeron - Xızı Regional Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə Sumqayıt şəhəri Sənaye və Yüksək Texnologiya üzrə peşə təhsil məktəbində "Yeniyetmə və gəncləri dini radikalizmdən qoruyaq" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə




şöbəsi və Kürdəmirdə yerləşən N saylı hərbi hissəsinin birgə təşkilatçılığı ilə "Dini ekstremizmin mahiyyəti və fəsadları" mövzusunda;

**28 mart** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin təşkilatçılığı ilə Gəncə şəhər 21 nömrəli tam orta məktəbində "Təhsilin xurafat və cəhalətə qarşı mübarizədə rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux rayon Füzuli kənd ümumi orta məktəbində; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və rayon gənclər və idman sektorunun təşkilatçılığı ilə Qax rayon Tasmalı kənd tam orta məktəbində "Aprel döyüşləri: Şanlı zəfərə aparan yol" mövzusunda;

**29 mart** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Salyan RİH və Şirvan-Salyan Regional Təhsil İdarəsinin Salyan rayonu üzrə təhsil sektorunun birgə təşkilatçılığı ilə rayonun Qaraçala qəsəbə tam orta məktəbində təhsildən yayınma hallarının qarşısının alınması və erkən nikahların fəsadları mövzularında; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Ağdam rayonu üzrə Gənclər və İdman Sektorunun birgə təşkilatçılığı ilə Ağdam Musiqi Kollecində "Dini radikalizm və onunla mübarizə üsulları" mövzusunda baş tutub.

Tədbirlərdə DQİDK-nın bölgə şöbələrinin əməkdaşları ilə yanaşı, rayon icra hakimiyyətlərinin, rayon təhsil, gənclər və idman sektorlarının, rayon polis şöbələrinin və digər regional qurumların əməkdaşları, rayonların dini icma sədrləri və din xadimləri, QMİ-nin səlahiyyətli nümayəndələri, o cümlədən hərbçilər, müəllimlər və şagirdlər, ictimaiyyət nümayəndələri və gənclər iştirak ediblər.

Çıxışlar zamanı DQİDK-nın müvafiq qurumlarla birgə həyata keçirdiyi maarifləndirmə işinin önəmi diqqətə çatdırılıb. Məktəblilərin dünyagörüşünə, mənəvi inkişafına mənfi təsir göstərən amillərə diqqət çəkilərək dini radikalizm, erkən nikah və narkomaniyanın gənclərimizin gələcəyi üçün real təhlükə yarada biləcəyi vurğulanıb. Vətənpərvərlik ruhu aşılayan dəyərlərimizin məktəblilərin formalaşmasındakı önəmindən və bu istiqamətdə maarifləndirmə işinin əhəmiyyətindən bəhs edilib. Humanist və tolerant gəncliyə sahib olmaq üçün təhsil və təlim-tərbiyənin roluna toxunulub.

Natiqlər bəşəriyyəti narahat edən məsələlərdən olan dini radikalizm və onun fəsadlarından danışıblar. Müxtəlif dini cərəyanlar və onların fəaliyyət metodları haqqında ətraflı məlumat veriblər. Ölkəmizdə dini radikalizmə qarşı aparılan mübarizə tədbirlərindən bəhs ediblər. Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsirini izah ediblər.

Tədbirlərdə zərərli vərdişlər və onların fəsadları barədə məlumat verilib. Ölkəmizdə yeniyetmə və gənclərin zərərli vərdişlərdən qorunması istiqamətində həyata keçirilən işlər diqqətə çatdırılıb. Narkomaniyanın qurbanına çevrilmiş insanların həyat tərzi, onların üzləşdiyi çətinliklər, səhhətlərində yaranan problemlərdən bəhs olunub.

Çıxışlarda erkən nikah problemindən və onun fəsadlarından da ətraflı bəhs edilib. Bildirilib ki, bu gün bütün dünyada olduğu kimi ölkəmizdə də erkən nikahın doğurduğu fəsadlar və cəmiyyətə vurduğu ziyan mühüm və aktual problemlərdən biri olaraq qalır. Qeyd olunub ki, ölkəmizdə əhalinin, xüsusilə də yeniyetmə və gənclərin erkən nikahın, qohum evliliyinin mənfi təsirlərinə dair məlumatlılıq səviyyəsinin artırılmasına xüsusi önəm verilir, bu istiqamətdə silsilə tədbirlər keçirilir. Diqqətə çatdırılıb ki, qızların erkən yaşda evlənməsi onların təhsildən yayınmasına şərait yaradır, uşaqların həyat və sağlamlığını təhlükə qarşısında qoyur.

Natiqlər ailə dəyərlərinin xalqımızın milli-mənəvi dəyərlərinin qoruyucusu və genofondumuzun daşıyıcısı kimi milli inkişafımızda mühüm rol oynadığını bildiriblər. Qloballaşma dövründə gənclər arasında milli ailə dəyərlərinin əhəmiyyətinin təbliği, onun qorunması və möhkəmləndirilməsi istiqamətində görülməli işlər barədə geniş məlumat veriblər.

Çıxışlar zamanı vətənpərvərlik ruhunun yüksəldilməsində mənəvi və dini dəyərlərin rolundan bəhs olunub. Qeyd edilib ki, 44 günlük Vətən müharibəsinin Azərbaycanın qələbəsi ilə başa çatmasını təmin edən mühüm amillərdən biri də məhz gənclər arasında vətənpərvərlik ruhunun aşılanması ilə bağlı uğurlu işin aparılmasıdır.

Tədbirlərin yekununda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# DÖVLƏT KOMİTƏSİ 31 MART – AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜNƏ HƏSR OLUNMUŞ SİLSİLƏ TƏDBİRLƏR KEÇİRİB



Bölgələrdə 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar silsilə tədbirlər keçirilib.

Martın 27-də Balakən rayonu Şambul kənd tam orta məktəbində keçirilən tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Zaqatala bölgəsi üzrə şöbəsinin baş məsləhətçisi Elməddin Atakişiyev, məktəbin müəllimləri və yuxarı sinif şagirdləri iştirak ediblər.

***

Həmçinin martın 27-də DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı və Ucar, Göyçay, Kürdəmir, Zərdab rayonlarında fəaliyyət göstərən din xadimləri, dini icma sədrlərinin iştirakı ilə anım tədbiri keçirilib.

***

Martın 27-də daha bir tədbir Quba Soyqırımı Memorial Kompleksində baş tutub. Tədbirə DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin müdiri Ramin Xudayev, İnsan Hüquqları üzrə Müvəkkilin regional mərkəzinin direktoru Bəhruz Əfəndiyev, Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Anar Məmmədov, QMİ-nin bölgə qazısı Naib Səttarov, din xadimləri, dini icma sədrləri, ictimaiyyət nümayəndələri qatılıblar.

***

Martın 28-də Ucar rayonunda da anım tədbiri keçirilib. Tədbirdə DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin əməkdaşı Rauf Nəsirov, rayon ağsaqqalları, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

***

Martın 29-da DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Mil-Muğan Regional Gənclər və İdman İdarəsi və rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə İmişlidə; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlıda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Qazax-Tovuz Regional Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Gədəbəy Heydər Əliyev Mərkəzində; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağsuda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Yevlax şəhəri üzrə təhsil sektorunun birgə təşkilatçılığı ilə Yevlax şəhəri 2 nömrəli tam orta məktəbdə və digər rayonlarda da anım tədbirləri keçirilib.

Tədbirlərə şagird və müəllimlər, din xadimləri və dini icma sədrləri, gənclər və ictimaiyyət nümayəndələri qatılıblar.



Tədbirlərdə ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, soyqırımı qurbanlarının ruhlarına dualar oxunub.

Çıxışlarda natiqlər ermənilərin xalqımıza qarşı həyata keçirdikləri soyqırımları, etnik təmizləmə və deportasiya siyasəti barədə məlumat veriblər. 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı zamanı Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə erməni daşnaklarının qanlı qırğınlar törətdiklərini və minlərlə azərbaycanlını qətlə yetirdiklərini təəssüflə qeyd ediblər. Vuğulanıb ki, ötən əsrdə ermənilərin törətdikləri qırğınlar xalqımızın qan yaddaşında əbədi iz buraxıb.

## RAMAZAN AYININ BAŞLAMASI MÜNASİBƏTİLƏ BÖLGƏLƏRDƏ DİN XADİMLƏRİ İLƏ GÖRÜŞLƏR TƏŞKİL EDİLİB

Mart ayı ərzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), müvafiq rayon icra hakimiyyətləri və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) rayon qazılıqlarının birgə təşkilatçılığı ilə Ramazan ayında qarşıda duran vəzifələrə həsr olunmuş silsilə tədbirlər keçirilib.

Tədbirlərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgə şöbələrinin və rayon icra hakimiyyətlərinin əməkdaşları, QMİ-nin rayon qazılıqlarının nümayəndələri, dini icma sədrləri və din xadimləri iştirak ediblər.

Görüşlərdə Ramazan ayının gəlişi ilə əlaqədar qarşıda duran vəzifələr müzakirə olunub, bununla bağlı tapşırıq və tövsiyələr verilib. QMİ-nin Qazılar Şurasının



Ramazan ayı ilə bağlı fətvasına və qanunvericiliyin tələblərinə əməl edilməsinin vacibliyi vurğulanıb. Ramazan ayında din xadimlərinin fəaliyyətlərini daha da gücləndirməli olduqları diqqətə çatdırılıb. Çıxışlar zamanı qeyd edilib ki, din xadimləri milli-mənəvi dəyərlərin qorunması və təbliği istiqamətində, eləcə də dini radikalizm, ekstremizm, məzhəbçilik və xurafat meylləri ilə mübarizədə fəal olmalıdırlar. Tədbirlərdə ölkəmizdə dövlət-din münasibətlərinin sağlam prinsiplər üzərində qurulduğu, dövlətin dini sahəyə, din xadimlərinə diqqət və qayğı göstərdiyi vurğulanıb. Həmçinin din xadimlərinin fikirləri dinlənilib.

## QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR
### (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ)
## MƏLUMATLARI

**«Gürcü Yəhudilərinin Bakı» dini icması**

Qeydiyyat tarixi: 25 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 136

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən dini icmanın təsisçisi və sədri İsayev Ramiz İdris oğlunun adı "Ramiz" kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, "Zamir" kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 05 mart 2024-cü il

**«Zaqatala rayonu Paşan kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 09 fevral 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 204

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmmədov Məmmədnuri Şaban oğlu, Qeleqov Əli Abakar oğlu, Məmmədov Nurhuda Məmmədnuru oğlu, Məmmədov Məmməd Məmmədvəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Malikov Rəcəb Mikailoviç, Məmmədov Süleyman Abdurahmanoviç, Qazıyev İslam Nurullah oğlu, Qeleqov Rəsul Məmmədrəşad oğlu, Qeleqov Yusup İsmayıl oğlu, Məmmədov Xəlil Faziloviç, Şabanov Nurlan Nurmuhuma oğlu, Xirayev Nəbi Abdurahman oğlu, Şabanov Nurmuhuma Bəşir oğlu, Abdullayev Ramazan Osman oğlu, Məmmədov Məmməd Hüseyn oğlu, Qeleqov Abdulməcid Məmməd oğlu, Məlikov Mikayıl Məmmədoviç, Şabanov Qurban Aşrafəddin oğlu, Məmmədov Nəsrullah Mikayıl oğlu, Şabanov Müsənnif Cəlaləddin oğlu, Qeleqov Adil Məmməd oğlu, Rəcəbov Ömər İsa oğlu, Şabanov Nurullah Cəlaləddin oğlu, Murtiyev Murad Seyid oğlu, Mollayev Muhuma Müslüm oğlu, Ananyev Roman Vladimiroviç, Kiçniyev Şamxal Hacımahmudoviç, Məmmədov Əfəndi Arif oğlu, Şabanov Sədullah Cəlil oğlu, Məmmədov İbrahim Nurhudayeviç, Qeleqov Şamil Məmməd oğlu, Şabanov Nurhuda Bəşir oğlu, Məmmədov Məmməd Nurhuda oğlu, Şabanov Şərif Məmmədoviç, Xadiyev Şamil Məmmədoviç, Xadiyev Ənvər Şaban oğlu, Şabanov Cəbrayıl Məmməd oğlu, Qaziyev Süleyman Qazıməmməd oğlu, Xadiyev Səfər Şabanoviç, Bullayev Abdulməcid Məmmədəmin oğlu, Şabanov İsmayıl Məmməd oğlu, Həsənov Ramazan Nurəddin oğlu, Mollayev Aydın Şaban oğlu, Məmmədov İmran Ənvər oğlu, Ömərova Cəmilət Əsəd qızı, Kahayeva Raziyyət İzəddin qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Məmmədov Məmmədnuri Şaban oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Şabanov Müsənnif Cəlaləddin oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 07 mart 2024-cü il

**«Balakən rayonu Şambul kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 28 iyul 2017-ci il
Qeydiyyat №-si: 100117A – 750

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Xalayev Qurbanmahama Məhəmməd oğlu, Burtiyev İbrahim Nəsrullah oğlu, Qurdayev Şaban Hacıyov oğlu, Urkayev İbrahim Məhəmməd oğlu, Qorodov İbrahim Mahama oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Ömərov Ömər Əhmədov oğlu, Heydərov Musa Qurban oğlu, Çixinov Əli Abdullah oğlu, Zurnayev Rəsul Məhəmməd oğlu, Çixinov Şamil Hacı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Xalayev Qurbanmahama Məhəmməd oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Ömərov Ömər Əhmədov oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 07 mart 2024-cü il

**«Goranboy rayonu Safıkürd və Tatarlı kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 29 mart 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 262

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Sadıqov Novruz Həbil oğlu, Zamanov Fuad Zabid oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Rəsulov Sərvan Zakir oğlu, Həsənov Toğrul Natiq oğlu, Rüstəmov Rüstəm Halay oğlu, Talıbov Elməddin Qiyas oğlu, Həsənov Bəhman Əhliman oğlu, Ələkbərov Azər Taryel oğlu, Nəbiyev Elzamin Nizami oğlu, Xuduyev Eldəniz Ələsgər oğlu, Yusibov Elşən Məmməd oğlu, Həsənzadə Həsən Arif oğlu, Məmmədov Ramil Aydın oğlu, Quliyev Ruhlan Salman oğlu, Həsənov İbrahim Həsən oğlu, Həsənov Kamil Nazar oğlu, Cəfərzadə Faiq Bilal oğlu, Qarayev Dilqəm Çingiz oğlu, Aslanov Rafik Ədalət oğlu, Əliyev Əhliman İdris oğlu, Abdullayev Oruc Fəxrəddin oğlu, Hüseynov Rauf Telman oğlu, Əliyev Elnur Hafiz oğlu, Məmmədov Fazil Firudin oğlu, Behbudov Həmid Tapdıq oğlu, Qasımov Nüsrət Sədi oğlu, Yusibov Fehruz Cəmşid oğlu, Əliyev Tehran Şəmsi oğlu, Məhərrəmov Toğrul Akif oğlu, Cəfərov Vüqar Keniş oğlu, Məmmədov Rahib Əjdər oğlu, Abbasov Nəsib Qələndər oğlu, Ocaqverdiyev Sarvan Surxay oğlu, Bədəlov Radil Rəşid oğlu, Sadıqov Səbuhi Vaqif oğlu, Abışov Fariz Surxay oğlu, Cəfərov Mübariz Qaçay oğlu, Zamanov İbrahim Fabirəddin oğlu, Əliyev Əlövsət Xanlar oğlu, Aşırov Məhəmməd Oqtay oğlu, Musayev İslam Zahid oğlu, Hüseynov Fehruz Musa oğlu, Cəfərov İlqar Keniş oğlu, Bayramov Nadir Fayaz oğlu, Əkbərov Asif Nəsif oğlu, İsayev Baxşalı Məhəmmədəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 13 mart 2024-cü il

**«Zaqatala rayonu Car kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 08 may 2019-cu il
Qeydiyyat №-si: 100119D – 906

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abramov Məmmədşəfi Osman oğlu, Cingözov Nurullah Lülü oğlu, Osmanov Qurban Məmməd oğlu, Ərəbov Məhəmməd İsmayıl oğlu, Uralov Süleyman Abdulsalam oğlu, Kusayev Hacımolla Lülü oğlu, Mirzəyev Məmməd Şamil oğlu, Heraçiyev Şamil Əhməd oğlu, Bugluyev Ömər Nəsrəddin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Qurqunayev Abdulla Məmməd oğlu, Hüseynov Tahir Carullah oğlu, Naqqayev Həbibullah İsmayıl oğlu, Şirinov Məmmədrəsul Bilal oğlu, Qurqunayev Məmməd Abdulmütəllib oğlu, Şirinov İsrafil Hacıyev oğlu, Voxiyev Aslan Tahir oğlu, Mehdiyev Məmmədrəşad Bəşir oğlu, Cücüyev Aydın İbrahimxəlil oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 13 mart 2024-cü il

**«Zaqatala rayonu Fındıqlı kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 09 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 280

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ramazanov Abdi İbrahimoviç, Ramazanov Qurban Abdi oğlu, Həsənov Rəhman Eynal oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Qarayev Eldar Tayyuboviç, Abdullayev Cəbrayıl Əli oğlu, Usmanov Rüstəm Hafizoviç, Osmanlı Akif Əziz oğlu, Dibirov Elşən Abdusalam oğlu, Qurbanov Zöhrab Xizri oğlu, Abdullayev Elmar Şahismayıl oğlu, Sultanov İslam Mənəfoviç, Muxtazov Cəlil Möhlüd oğlu, Xalidov Süleyman İbrəhim oğlu, Şabanov Kahov Kamil oğlu, Nəbiyev Rafael Musayeviç, İsayev İbrahim Əhməd oğlu, Mahmudov Kamran Həmid oğlu, Məmmədov Müslüm Rasim oğlu, Əliyev İldar Həsənoviç, İsayev Qoçəli Bektaşeviç, Osmanov Xəlil Qaflan oğlu, İsmayılov Həsən Çingiz oğlu, Nəsibov Vasif Telman oğlu, İsmailov Teymur Siruz oğlu, Xəlilov Elçin Telman oğlu, Ramazanov Şaban Abdi oğlu, Əhmədov Mehman Mehralı oğlu, İmanov Fariz Vahid oğlu, Məmmədov Bəşir Xəlil oğlu, Şabanov Ramazan Xalıq oğlu, Şərifov Fikrət Paşa oğlu, Ziyadov Abdulməcid Qarakişi oğlu, Məmmədov Elnur Şaban oğlu, Niyazov Nuriddin Seyful oğlu, Şahmuradov Fazli Şamiloviç, Usmanov Rasul Hafizoviç, Abdullayev Elman Əli oğlu, Məmmədov Rəşid Bahaddin oğlu, İsoyev Bekzada Kuçaliyeviç, İsmayılov Nadir Vaqif oğlu, Orucov Nail Həmzə oğlu, Hacıyev Fəxrəddin Xalid oğlu, Soltanov İlham Soltan oğlu, Həmidov Taleh Arzuman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Ramazanov Abdi İbrahimoviç dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Dimanov Zaur Şaban oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 29 mart 2024-cü il

CƏMİYYƏT və DİN
№ 03 (389) MART 2024-cü il

# AVROPA PARLAMENTİ SÜNİ İNTELLEKT HAQQINDA DÜNYADA İLK QANUNU TƏSDİQLƏYİB



Avropa Parlamenti süni intellekt (Sİ) haqqında dünyada ilk qanunu qəbul edib.

Yeni qaydalar vətəndaşların hüquqlarını təhdid edən Sİ tətbiqinin müəyyən formalarını, məsələn, həssas xüsusiyyətlər əsasında biometrik təsnifat sistemləri və üz tanıma məlumat bazalarının yaradılması üçün internetdən üz şəkillərinin və ya videomüşahidə kamera qeydlərinin qeyri-selektiv çıxarılmasını qadağan edir. İş yerində və məktəbdə duyğuların tanınması, sosial reytinq və insan davranış məlumatlarını manipulyasiya edən və ya insanların zəifliklərini istismar edən süni intellekt də qadağandır.

Qanun, həmçinin digər yüksək riskli süni intellekt sistemləri üçün (onların sağlamlığa, təhlükəsizliyə, əsas hüquqlara, ətraf mühitə, demokratiyaya və qanunun aliliyinə əhəmiyyətli dərəcədə zərər verdiklərinə görə) dəqiq öhdəliklər nəzərdə tutur. Yüksək riskli Sİ-nin istifadəsinə kritik mühüm infrastruktur, təhsil və peşə hazırlığı, məşğulluq, əsas dövlət və özəl xidmətlər (məsələn, səhiyyə və ya bankçılıq), bəzi hüquq-mühafizə sistemləri, miqrasiya və sərhəd idarəçiliyi daxildir.

Qanun yekun hüquqi-linqvistik yoxlamadan keçməlidir, sonra isə onu Avropa Şurası təsdiq edəcək. Qanun Aİ-nin rəsmi jurnalında dərc edildikdən 20 gün sonra qüvvəyə minəcək, iki il sonra isə tam tətbiq ediləcək.

# MİSİRDƏ 4800 İL ƏVVƏLƏ AİD SƏRDABƏ TAPILIB



Qahirədə Alman Arxeologiya İnstitutunun bir qrup arxeoloqu tərəfindən aparılan qazıntılar zamanı müxtəlif rəsmlərlə bəzədilmiş və Misirin Qədim Krallığına aid sərdabə aşkar edilib.

"Əl Əhram" nəşrinin məlumatına görə, Misirin Qədim Əsərlər üzrə Ali Şurası baş katibinin müvəqqəti işlər vəkili Hişam Əl-Leyti bildirib ki, bu tapıntı qədim Misir cəmiyyətinin ictimai-siyasi strukturu haqqında dəyərli məlumatlar ehtiva edir.

Piramidaların yerləşdiyi Gizanın cənubundakı Dahşur nekropolu Qədim Krallığın görkəmli piramida sərdabələri ilə zəngindir. Burada eramızdan əvvəl 2650-ci ildə firon Xeopsun atası Seneferuya aid edilən Qırmızı piramida və Bükülmüş piramida var.

Arxeoloqlar qrupunun rəhbəri Stefan Seidlmayer bildirib ki, araşdırmalar sərdabənin fironların beşinci sülaləsinin sonu və ya altıncı sülalənin əvvəllərinə aid ediləbiləcəyini göstərir. O əlavə edib ki, bu məzarlıq Qırmızı Piramida şəhərciyinin sakinlərinə məxsus geniş qəbiristanlığın bir hissəsidir.

Böyük əhəng daşından hazırlanmış qapının üzərindəki yazılar sərdabənin sarayda müxtəlif inzibati vəzifələrdə çalışan Seneb-Nebef adlı şəxsə və onun arvadı İduta aid olduğunu göstərir.

Seidlmayer qeyd edib ki, bu tapıntını fərqləndirən onun nəfis rənglənmiş bəzəyidir ki, buna da Dahşur nekropolunda nadir hallarda rast gəlinir. Zərif sənət əsərləri gündəlik həyat səhnələrini, o cümlədən taxılın üyüdülməsi, Nil çayında üzən gəmiləri və səs-küylü bazarları, eləcə də qurban gətirən xidmətçilərin təsvirlərini ehtiva edir.

Alman Arxeologiya İnstitutunun bu missiyası 1976-cı ildən Dahşurda aparılan qazıntılarda iştirak edir və əsasən Orta Krallığın piramidalarına diqqət yetirir.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Aprel - 2024)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:01 | 06:24 | 12:44 | 17:14 | 19:20 | 20:22 |
| 2 | 05:00 | 06:22 | 12:44 | 17:15 | 19:21 | 20:24 |
| 3 | 04:58 | 06:20 | 12:44 | 17:16 | 19:22 | 20:25 |
| 4 | 04:56 | 06:19 | 12:44 | 17:16 | 19:23 | 20:26 |
| 5 | 04:54 | 06:17 | 12:43 | 17:17 | 19:24 | 20:27 |
| 6 | 04:52 | 06:16 | 12:43 | 17:18 | 19:25 | 20:28 |
| 7 | 04:51 | 06:14 | 12:43 | 17:18 | 19:26 | 20:30 |
| 8 | 04:49 | 06:12 | 12:42 | 17:19 | 19:27 | 20:31 |
| 9 | 04:47 | 06:11 | 12:42 | 17:20 | 19:28 | 20:32 |
| 10 | 04:45 | 06:09 | 12:42 | 17:20 | 19:29 | 20:33 |
| 11 | 04:43 | 06:08 | 12:42 | 17:21 | 19:30 | 20:35 |
| 12 | 04:41 | 06:06 | 12:41 | 17:22 | 19:31 | 20:36 |
| 13 | 04:40 | 06:05 | 12:41 | 17:22 | 19:32 | 20:37 |
| 14 | 04:38 | 06:03 | 12:41 | 17:23 | 19:33 | 20:39 |
| 15 | 04:36 | 06:02 | 12:41 | 17:23 | 19:34 | 20:40 |
| 16 | 04:34 | 06:00 | 12:40 | 17:24 | 19:36 | 20:41 |
| 17 | 04:32 | 05:59 | 12:40 | 17:25 | 19:37 | 20:42 |
| 18 | 04:31 | 05:57 | 12:40 | 17:25 | 19:38 | 20:44 |
| 19 | 04:29 | 05:56 | 12:40 | 17:26 | 19:39 | 20:45 |
| 20 | 04:27 | 05:54 | 12:39 | 17:27 | 19:40 | 20:46 |
| 21 | 04:25 | 05:53 | 12:39 | 17:27 | 19:41 | 20:48 |
| 22 | 04:24 | 05:51 | 12:39 | 17:28 | 19:42 | 20:49 |
| 23 | 04:22 | 05:50 | 12:39 | 17:28 | 19:43 | 20:50 |
| 24 | 04:20 | 05:49 | 12:39 | 17:29 | 19:44 | 20:52 |
| 25 | 04:18 | 05:47 | 12:39 | 17:30 | 19:45 | 20:53 |
| 26 | 04:17 | 05:46 | 12:38 | 17:30 | 19:46 | 20:55 |
| 27 | 04:15 | 05:44 | 12:38 | 17:31 | 19:47 | 20:56 |
| 28 | 04:13 | 05:43 | 12:38 | 17:31 | 19:48 | 20:57 |
| 29 | 04:12 | 05:42 | 12:38 | 17:32 | 19:50 | 20:59 |
| 30 | 04:10 | 05:41 | 12:38 | 17:33 | 19:51 | 21:00 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə)*:** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4**, Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5**, Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6**, Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8**, Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20**.

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# "TİTANİK" FİLMİNDƏKİ QAPI HƏRRACDA 718 MİN DOLLARA SATILIB



"Heritage Auctions" Hərrac evi Hollivud filmlərinin xatirə əşyalarının hərracında "Titanik" filminin sonunda Keyt Uinsletin qəhrəmanının xilas olmaq üçün istifadə etdiyi məşhur qapını hərraca çıxarıb. Hərracın gedişində lot 718 min dollara çatıb və başlanğıc qiyməti - 40 min dolları xeyli ötüb.

"The Hollywood Reporter" nəşri xəbər verir ki, Halifax Dəniz Muzeyinin XV Lui üslublu dekorativ panelinə heyrətamiz dərəcədə bənzəyən bu rekvizit "Titanik" filminin ən maraqlı səhnəsini əks etdirir. Qapının uzunluğu 2,44 metr, eni isə 1,04 metrdir.

Qapıdan əlavə, hərraca "The Shining" filmindən balta, 1984-cü ildə çəkilmiş "İndiana Cons"dan qamçı və "Titanik"in finalında Keyt Uinsletin şifon paltarı daxil edilib. Sonuncu rekvizit 125 min dollara satılıb. Bu əşyaların yeni sahiblərinin adları açıqlanmayıb.

Alıcıların əldə etdikləri digər auksion əşyalarına "Kingpin"dən qırmızı qızılgüllərlə boulinq topu (350.000 dollar) və "Hörümçək Adam 3"dən Tobey Maguirenin qara kostyumu (125.000 dollar) daxildir.

## Yadigar söz

**Məhəmməd peyğəmbər (s)**

*Dünyanın və axirətin yaxşılığı elmdədir,*
*hər iki dünyanın pisliyi cəhalətdə.*

Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:**
**Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV**
**Raman DADAŞOV** (Məsul katib).

**Ünvan:** AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
**Telefon:** 505 78 16; 505 78 19
**E-mail:** redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894